13_27 IYUl-QARA.qxd 4/18/2024 11:53 PM Page 1

UNİKAL

№13 (2195) 19 aprel 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Gəldikləri kimi gedirlər:

## "Rusiya Cənubi Qafqazla, biz də onlarla vidalaşırıq"



Səh.2



## Nazir məktəblərdəki neqativ hadisələrdən danışdı

*Şagirdlər arasında bulinq, qısnama və az sayda olsa da, intihar halları olur. Məktəblərdə daha ciddi fəsadların qarşısı məhz "Məktəblinin dostu" layihəsi əsasında alınıb. "Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev "Məktəblinin dostu" layihəsinin fəaliyyətinə dair keçirilən tədbirdə çıxışı zamanı deyib. Nazirin sözlərinə görə, 4000-dən çox məktəbdə 1 milyondan çox təhsilalan, çox sayda təhsilverən və valideynin olmasını nəzərə alsaq nəzəri baxımdan fövqəladə və bədbəxt hadisələr baş verə bilər. "Bir çox hallarda formalaşmış məktəb mədəniyyəti var. Ona görə də məsələni məktəbdaxili həll etmək düzgün olar", - o qeyd edib.*

Səh.2

## "Cəmiyyətimizin özəyi gözümüz baxa-baxa məhv edilir"



*Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, Xəzər dənizində süni torpaq sahələrinin yaradılmasının məqsədlərindən, Azərbaycanda ailə məhkəmələrinin yaradılması təklifindən, TikTok-un ölkəmizdə bağlanma ehtimalından və sosial şəbəkələr haqqında qanun layi-*

Səh.4

## Qubad İbadoğluya yekun ittiham elan edildi



*Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlunun cinayət işi üzrə ibtidai istintaq yekunlaşır. "Unikal" xəbər verir ki, bu barədə onun vəkili Bəhruz Bayramov məlumat verib. Vəkil deyib ki, Q.İbadoğluya Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama...*

Səh.4

## Əbülfəs Qarayevin mədəniyyətdən "yediyi" pullardan yeni xəbər



*Sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin Rusiyada fəaliyyət göstərən şirkəti ötən il gəlirlərini 192 dəfə artırıb. Belə ki, sabiq nazir ötən ilin may ayında Rusiyada "Korporaçiya ÇE" (OOO "Korporaüiə ÇE" - İNN: 7725322819) adlı şirkətin 50%-lik payını satın alaraq 2 təsisçidən biri olub.*

Səh.8

13_27 IYUI-QARA.qxd 4/18/2024 11:44 PM Page 5



# Prezident iqtisadiyat nazirinə yeni müavin təyin etdi



***Prezident İlham Əliyev iqtisadiyyat nazirinə yeni müavin təyin olunması barədə sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, bu vəzifəyə Anar Axundov təyin edilib.

Qeyd edək ki, A.Axundov 2014-2022-ci illərdə Təhsil Nazirliyində idarə rəisi işləyib, 2022-ci ildə dövlət başçısının sərəncamı ilə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının üzvü təyin edilib.

# Azərbaycanda faydalı qazıntı yataqları hərraca çıxarılacaq



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili Mərkəzi tərəfindən faydalı qazıntı yataqlarının istifadəyə verilməsi üzrə növbəti hərrac iyunun 5-də keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Əmlak Məsələləri Dövlət Xidməti məlumat yayıb.

Qeyd olunub ki, hərracda Şəmkirdə yerləşən Aşağı Zəyəmçay (2 ha), Qazaxda Dəmirçilər (1 ha), Balakəndə Katexçay (9 ha), Balakənçay II (10 ha) və Paşan (13 ha), Qəbələdə Xırxatala (2 ha), Zaqatalada Qaraçay I (30 ha) və Talaçay (8 ha), Şəkidə Qaşqaçay (2 ha), İsmayıllıda Təzəkənd (25 ha) qumçınqıl yataqları investorlara təklif olunacaq. Bununla yanaşı, Masallıda Güllütəpə I (7 ha), Göyçayda Qarabaqqal I (0,54 ha) və Ağcabədidə Muğanlı (1,40 ha) gil yatağı, həmçinin Abşeronda Qumyataq (5,6 ha) silikat qumu yatağı, Daşkəsəndə Yalqışlaq (2,1 ha) andezit yatağı, Şəmkirdə Şəmkir (6,56 ha) qranodiorit yatağı, Hacıqabulda Kürdçü (10 ha) və Atbulaq (5 ha), Xızıda Yeni Yaşma I (5,5 ha) qum yataqları da hərraca çıxarılır.

İddiaçılar hərracda iştirakla bağlı sənədləri 27 may 2024-cü il saat 18:00-dək "Bakı KOB evi"nə (Bakı şəhəri, Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə) təqdim edə bilərlər.

Əsas şərtlər toplusunu əldə etmək və hərracda iştirak üçün iddiaçılar hərrac haqqında elanda qeyd olunan məbləğdə xidmət haqqını və behi ödəməlidirlər. Hərracda xarici ölkələrin hüquqi və fiziki şəxsləri də iştirak edə bilərlər. Hərrac Əmlak Xidmətləri Məkanında keçiriləcək.

Hərrac elanı ilə Əmlak Məsələləri Dövlət Xidmətinin rəsmi saytında (//clck.ru/3A8vTU ) tanış olmaq olar.


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000





# Yunanıstanın Baş naziri Ərdoğanla görüşəcək

***Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəcək.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Baş nazir Avropa İttifaqının Brüssel sammitindən sonra keçirilən mətbuat konfransında deyib. O, görüşün mayın 13-də Ankarada baş tutacağını bildirib.

# Nazir məktəblərdəki neqativ hadisələrdən danışdı

## Emin Əmrullayev: "Kimisə günahlandırmaqla məsələni həll etmək mümkün deyil"

***Şagirdlər arasında bulinq, qısnama və az sayda olsa da, intihar halları olur. Məktəblərdə daha ciddi fəsadların qarşısı məhz "Məktəblinin dostu" layihəsi əsasında alınıb***



"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev "Məktəblinin dostu" layihəsinin fəaliyyətinə dair keçirilən tədbirdə çıxışı zamanı deyib. Nazirin sözlərinə görə, 4000-dən çox məktəbdə 1 milyondan çox təhsilalan, çox sayda təhsilverən və valideynin olmasını nəzərə alsaq nəzəri baxımdan fövqəladə və bədbəxt hadisələr baş verə bilər.

"Bir çox hallarda formalaşmış məktəb mədəniyyəti var. Ona görə də məsələni məktəbdaxili həll etmək düzgün olar", - o qeyd edib.

E.Əmrullayev bildirib ki, neqativ hadisələri ört-basdır etməkdənsə, həll yolu istiqamətində düzgün müzakirə aparılmalıdır: "Kimisə günahlandırmaqla məsələni həll etmək mümkün deyil, bu, hadisələrin yenidən təkrarlanmasına səbəb ola bilər".

O söyləyib ki, ailədaxili münaqişə və mühit məktəb daxilində öz təsirini göstərmiş olur: "Məsuliyyətin bölüşdürülməsi və birgə işin tərəfdarıyam. Məktəblərdə video müşahidələr də aparılır və görüntülər 30-40 gün saxlanılır. Bu, bəzi problemli məsələlərin həllində əhəmiyyətli rol oynayır. Bəzən heç də daxil olan məlumatlar dürüst olmur".

Nazir vurğulayıb ki, məktəblərdə hadisə qurbanı və mahiyyəti kənarda qalıb emosional davranış əsas götürülürsə bu, yaxşı deyil. Emin Əmrullayevin sözlərinə görə, hər il məktəblərdə xoşagəlməz hadisə baş verir: "Belə hallar bu gün də var, sonra da olacaq. Bütün dünyada vəziyyət belədir. Yaxşı təhsil sistemini pisdən ayıran əsas nüans sondakı reaksiyanın nədən ibarət olmasıdır. Hadisə qurbanı və mahiyyəti kənarda qalıb emosional davranış əsas götürülürsə bu, yaxşı deyil. Hadisə baş veribsə əsas məsələ nəticədir".

O bildirib ki, azyaşlı və yeniyetmələrlə iş görən komissiyaların işinə nəzarət gücləndirilməlidir: "Bəzən emosional gərginliyin mənfi təsirə məruz qalan şagirdə hansı faydası var məsələsi kənarda qalır. Halbuki nəzərə almaq lazımdır ki, emosiya tez bitir".

# Sahibə Qafarova: "Fransa kolonializmi Cənubi Qafqazda davam etdirmək niyyətindədir"

***Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, Ərazi Planlaşdırılması, Davamlı İnkişaf, Energetika, Nəqliyyat və Rabitə Komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Omayra Naiselinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Fransanın Cənubi Qafqaz regionunda sabitliyi pozmağa yönəlmiş siyasətinin tənqid edib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, Sahibə Qafarova, bildirib ki, Fransa öz tarixində qara ləkə olan kolonializmi yalnız öz keçmiş müstəmləkələrində, zor gücünə öz hakimiyyəti altında saxladığı ərazilərdə deyil, həm də digər regionlarda, həmçinin Cənubi Qafqaz regionunda davam etdirmək niyyətindədir.

Qeyd edilib ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalı dövründə münaqişənin həlli ilə məşğul olan Minsk Qrupunun üzvü kimi yarıtmaz fəaliyyət göstərmiş Fransa təəssüf ki, bu gün də Cənubi Qafqaz sülh səylərini, sabitliyi pozmağa yönəlmiş siyasət həyata keçirir. Fransa regionda gərginliyi artırır, militarizmi təhrik edir. O, təəssüflə Fransanın bu gün Azərbaycana qarşı bütün müstəvilərdə hücuma keçdiyini, beynəlxalq platformalarda mümkün vasitələrdən istifadə edərək, ölkəmizə qarşı qarayaxma kampaniyası apardığını diqqətə çatdırıb.

Görüş zamanı vurğulanıb ki,



Azərbaycan Prezidenti İlham Əliyevin də dediyi kimi, Azərbaycan müstəqil və güclü ölkədir. Heç kim bizə təzyiq göstərə bilməz. Ölkəmizin siyasəti yalnız sülhün, əməkdaşlığın təşviqinə, ədalətsizliyə qarşı mübarizəyə yönəlib.

Sahibə Qafarova deyib ki, Azərbaycan parlamentinin üzvləri Fransanın ikiüzlü siyasətini qətiyyətlə pisləyir və onun neokolonializm siyasətinin ifşası istiqamətində səylər göstərir.

# Mikayıl Cabbarov Andreas Rayxhardt ilə görüşüb

***Iqtisadiyyat Nazirliyində Avstriyanın maliyyə nazirinin müavini Andreas Rayxhardt və "Grabher Group" şirkətinin baş direktoru Günter Qraberlə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyindən bildirilib.

Qeyd olunub ki, iqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə keçirilmiş görüşdə ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın genişləndirilməsi üçün təşəbbüslərin artdığı vurğula-



nıb, Azərbaycanda inklüziv işgüzar mühit, investorlar üçün yaradılmış imkanlar barədə məlumat verilib, avstriyalı sərmayədarlar fəal işbirliyinə dəvət olunublar.

Tərəflər potensial əməkdaşlıq istiqamətləri və birgə sənaye layihələrinin həyata keçirilməsi imkanları haqqında fikir mübadiləsi aparıblar.

Avstriyanın "Grabher Group" şirkəti texniki tekstil sektorunda yüksəktexnologiyalı məhsullar üzrə ixtisaslaşmış bir neçə törəmə şirkətdən ibarətdir. Şirkət tibb və gigiyena, hava və maye filtrləmə, ağıllı tekstillər, nanotexnologiyalar və yüngül kompozit materiallar üzrə xüsusi həllər təklif edir.

13_27 IYUl-QARA.qxd 4/18/2024 11:44 PM Page 6



# Respublika Pediatriya Mərkəzi yaradıldı - Sədr təyin edildi

***Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və tibb müəssisələrində optimallaşdırma işlərinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə görülən işlər çərçivəsində TƏBİB-in tabeliyində Respublika Pediatriya Mərkəzi yaradılıb.***

"Unikal" xəbər verir ki, bu barədə TƏBİB-dən bildirilib. Mərkəzin yaradılmasında məqsəd bu sahədə fəaliyyətin səmərəliliyinin artırılması, uşaq əhalisinin müalicə diaqnostika prosesinin vahid mərkəzdə təkmilləşdirilməsi, yeni xidmət növlərinin yaradılmasıdır.

ƏBİB-in Müşahidə Şurasının qərarı ilə yaradılan Respublika Pediatriya Mərkəzinə direktor təyinatı olub.

Belə ki, TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanovun təq-



dimatı ilə Respublika Pediatriya Mərkəzinə Azər Əhmədov direktor təyin edilib.

İcraçı direktor Vüqar Qurbanov 18 aprel 2024-cü il tarixində yeni təyin olunmuş Azər Əhmədovu kollektivə təqdim edib.

Məlumat üçün bildirək ki, Azər Əhmədov 2001-2007-ci illərdə Azərbaycan Tibb Universitetində həkim-pediatr ixtisası üzrə təhsil alıb. 2007-2008-ci illərdə Ə.Qarayev adına 2 saylı Uşaq Klinik Xəstəxanasında internatura keçib. 2015-2019-cu illərdə Türkiyədə Qazi Universitetində təhsilini davam etdirərək uzmanlıq dərəcəsi alıb.

O, 2005-2007-ci illərdə Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında feldşer, 2007-2008-ci illərdə Ə.Qarayev adına 2 saylı Uşaq Klinik Xəstəxanasında intern, 2008-2011-ci illərdə Kəlbəcər Rayon Mərkəzi Xəstəxanasında həkim-pediatr, 2012-2015-ci illərdə Ankarada özəl tibb müəssisələrində Acil şöbə müdiri kimi çalışıb. 2020-ci ildə Bakı Sağlamlıq Mərkəzinin Pediatriya Mərkəzinin rəhbəri, 2020-2023-cü illərdə isə K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda direktor müavini vəzifəsini icra edib. 2023-cü ilin mart ayından indiyədək isə Ege Hospitalda pediatr kimi çalışıb.

# QHT-lər Vardanyanla bağlı Nobel Komitəsinə məktub göndərdi

***Azərbaycan QHT-ləri, Qarabağ və Şərqi Zəngəzur sakinləri Norveç Nobel Komitəsinə açıq məktub ünvanlayıb.***

"Unikal" xəbər verir ki, sənədi 206 nəfər imzalayıb. Məktubda deyilir: "Hörmətli Norveç Nobel Komitəsinin rəhbərliyi və üzvləri, Biz - Azərbaycan QHT-lərinin, Qarabağ və Şərqi Zəngəzur sakinlərinin təmsilçiləri olaraq, Ruben Vardanyanın Nobel Sülh Mükafatına namizəd kimi irəli sürülməsi barədə mediada yayılmış xəbərləri hiddətlə qarşılayır, bu barədə Azərbaycan ictimaiyyətinin qəti mövqeyini diqqətinizə çatdırmaq istəyirik.

Ruben Vardanyanın həyat və fəaliyyəti Nobel Sülh Mükafatının rəhbər tutduğu ideal və dəyərlərə təhqir səciyyəsi daşıyır, bu adların yanaşı çəkilməsinin özü belə bu ali mükafatın dünyada qəbul edilmiş yüksək nüfuzuna ləkə gətirə, beynəlxalq ictimaiyyəti çaşdıra bilər.

Çirkli pulların yuyulması ilə sərvət toplamış kriminal ünsür, terrorçuluğu maliyyələşdirən sima kimi Ruben Vardanyan barədə ağır ittihamlar var. O, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış və sonradan özünü buraxmış qondarma separatçı rejimin - hərbi xuntanın bir müddət aparıcı rəhbər şəxslərindən biri olub.

Həmin dövrdə onun məhz sülhə əngəl olmaq niyyəti ilə Qarabağa gəlişi və ardıcıl yaydığı təxribat xarakterli açıqlamalar vəziyyəti artan xətt üzrə gərginləşdirib, o, Azərbaycan və Ermənistan arasında normallaşma prosesini pozmağa çalışıb.

Beynəlxalq hüquq normalarını heçə sayan Vardanyan Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təhdid edib, fəaliyyəti ilə Azərbaycan ərazisində "boz zona"nın saxlanmasını təşviq edib, azərbaycanlı məcburi köçkünlərin Xankəndiyə, Xocalıya və digər yaşayış məntəqələrinə qayıdışına mane olub.

Ruben Vardanyan kimiləri üçün çirkli pullardan müqəddəs heç nə yoxdur. Onu həmin dövrdə Qarabağa gətirmiş əsas motivlərdən birinin də məhz Ermənistan ordusunun Qarabağdakı tör-töküntülərini yenidən təşkilatlandırmaq yolu ilə Azərbaycanın bu ərazilərdəki qızıl və mis-molibden yataqlarını qanunsuz istismar etmək və daşımaq olması istisna deyil.

Ruben Vardanyan 2023-cü ilin sentyabrında Azərbaycan Respublikasının hüquq mühafizə orqanları tərəfindən Qarabağdan qaçmaq istəyərkən saxlanılıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin terrorçuluğu maliyyələşdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə maddələri ilə ittiham olunur. Hazırda barəsində istintaqəməliyyat tədbirləri davam etdirilir.

Ruben Vardanyanın bir çox ölkələrdə qaranlıq maliyyə fəaliyyətinə dair ciddi şübhələr var. 2019-cu ildə OCCRP (Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi) Vardanyanın qanunsuz fəaliyyəti ilə bağlı "Troyka Camaşırxanası" adlı araşdırma hesabatını




dərc edib. Bu hesabatda Ruben Vardanyanın da iştirak etdiyi iddia edilən qeyri-qanuni fəaliyyətlərdən ibarət mürəkkəb şəbəkə ifşa edilib. 2019-cu ilin martında Avropa Parlamentinin üzvləri Avropa Komissiyasının sədrinə məktub yazaraq, "Troyka Dialoq"un keçmiş sahibi Ruben Vardanyana və "Troyka Dialoq"un "offşor sistemi" ilə əlaqəsi olan digər şəxslərə qarşı sanksiyaların tətbiq edilməsinin zəruriliyini bildiriblər. Məktubu Böyük Britaniya, İsveç, Almaniya və digər ölkələri təmsil edən 22 avropalı deputat imzalayıb.

Çirkli pullarla biznes imperiyası qurmuş beynəlxalq maliyyə fırıldaqçısı Ruben Vardanyanın əli dünyada günahsız insanların qanına bulaşıb, o, qanunsuz yollarla qazanc götürmək istədiyi hər yerdə terrorçuluğu maliyyələşdirməkdə iştirak edib.

Nobel Sülh Mükafatı özündə Alfred Nobelin təşviq etmək istədiyi sülh, barışıq və beynəlxalq əməkdaşlıq ruhunu təcəssüm etdirir. Biz Norveç Nobel Komitəsini çoxsaylı cinayətlərdə ittiham olunan Ruben Vardanyanla əlaqədar məsələyə yanaşmada Azərbaycan ictimaiyyətinin bu şəxs barədə aydın və qəti mövqeyini nəzərə almağa çağırırıq".

# Azərbaycanı yenidən AŞPA-da görmək istəyirəm - Dominik Hasler

***Avropa Şurası Nazirlər Komitəsinin rəhbəri, Lixtenşteynin xarici işlər naziri Dominik Hasler Azərbaycan nümayəndə heyətini tezliklə Parlament Assambleyasında görmək istədiyini bildirib.***



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sessiyasında irlandiyalı deputat Pol Havanın sualına cavab verən Dominik Hasler deyib: "Hesab edirəm ki, bizim bir-birimizə ehtiyacımız var və ümid edirəm ki, Azərbaycan nümayəndə heyəti tezliklə Parlament Assambleyasında öz yerinə qayıdacaq".

O daha sonra əlavə edib: "Ümid edirəm ki, nümayəndə heyətinin tezliklə geri qayıtması ilə tərəflər arasında əməkdaşlıq və dialoq bizi birləşdirən dəyərlərin maraqları naminə davam edəcək".

Dominik Haslerin sözlərinə görə, o, Nazirlər Komitəsinin sədri kimi hamı üçün ən məqbul həll yolunu tapmaq məqsədilə üçtərəfli müzakirə təşkil edib. O qeyd edib ki, Azərbaycan nümayəndə heyətinin qayıdışı ümumi ideyaların qorunması və təbliği baxımından, xüsusən də təşkilatın 75 illik yubileyinin qeyd olunması üçün mühüm əhəmiyyət kəsb edir.

"Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra demokratikləşmə prosesində AŞ-nin dəstəyindən yararlanıb və AŞ da öz dəyərlərini təbliğ etmək və əhatə dairəsini genişləndirmək üçün Azərbaycandan faydalanıb. Bu, qarşılıqlı faydalı əməkdaşlıqdır və iş başa çatmayıb, ciddi islahatlar tələb edir", - deyə Lixtenşteyn Xarici İşlər Nazirliyinin rəhbəri əlavə edib.

Xatırladaq ki, Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti 2024-cü ilin yanvarında bu qurumda iştirakını qeyri-müəyyən müddətə dayandırıb. Nümayəndə heyəti bu addımını AŞPA-da Azərbaycana qarşı aparılan qərəzli kampaniya ilə əlaqələndirib.

# Bu məqsədə çatmaqda Azərbaycanın yanındayıq - ABŞ səfiri

***ABŞ minalardan təmizləmə əməliyyatları üçün Azərbaycana 38 milyon dollara yaxın vəsait ayırıb.***

"Unikal" Səfirliyə istinadən xəbər verir ki, bu barədə ABŞ səfiri Mark Libby Ağdamda Minatəmizləyicilərin fəaliyyətə başlamalarına həsr olunan mərasimdə çıxışı zamanı bildirib.

"Bu gün mən təlimlərini başa vuraraq peşəkar minatəmizləyici kimi fəaliyyətə başlayacaq bu cəsur azərbaycanlı mütəxəssislərə heyranlığımı və hörmətimi bildirirəm. Yeni minatəmizləyicilər arasında qadınları görmək məni xüsusilə sevindirir. Qadınları gücləndirmək ölkənin bütün işçi qüvvəsini işə cəlb etmək deməkdir və onların istedadlarından istifadə etmək istənilən problemin öhdəsindən gəlməyin ən yaxşı yoludur. Sizin işiniz məcburi köçkünlərin öz evlərinə daha tez və təhlükəsiz qayıtmasına kömək edəcək. Nəhayət, və ən əsası, sizin işiniz xəsarətlərin qarşısını alacaq və həyatları xilas edəcək", - diplomat qeyd edib.

Səfir vurğulayıb ki, Birləşmiş Ştatlar minatəmizləmə təşkilatlarının texniki potensialının artırılmasına və ölümcül minaların və partlamamış hərbi sursatların təmizlənməsinə yönəlmiş humanitar mina fəaliyyətini dəstəkləməyə sadiqdir: "Biz Azərbaycanın minalardan təmizlənəcəyi günü səbirsizliklə gözləyirik və bu məqsədə çatmaqda Azərbaycanın yanındayıq".

# Komitə sədri: "Sağlam qida olmadan"

***"Bədxassəli şişlərin əmələ gəlməsində trans yağlar əsas amildir və bu, təsdiq olunub".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən ictimai dinləmədə parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib.

Onun sözlərinə görə, bədxassəli şişlərin əmələ gəlməsində tək qidaların istehsalı yox, emalı da böyük əhəmiyyət daşıyır. Sağlam qida istehsal olunsa da, o düzgün emal edilmirsə, insan orqanizmi üçün son dərəcə təhlükəli hala çevrilir: "Konservləşdirilmiş qidalar, hisə verilmiş ət və balıq, həddən çox heyvani piylər bədxassəli şişlərin əmələ gəlməsində əsas səbəb kimi elmi tədqiqat baxımından təsdiq olunub və bu, inkar edilə bilməz".

Ə.Əmiraslanov bildirib ki, sağlam qida olmadan insan sağlamlığı haqqında danışmaq çətindir: "İnsan bədəninə daxil olan infeksiyaların, parazitlərin, virusların böyük əksəriyyəti qida vasitələri ilə daxil olur. Xüsusilə yolxucu xəstəliklərin əksəriyyəti zərərli qida məhsullarından keçir. Pandemiyaların, epidemiyaların, hətta ürək damar, onkoloji xəstəliklərin yaranmasında qida faktoru mühüm rol oynayır. Onkoloji xəstəliklərin 25 faizdən çox səbəbi qida faktorudur. İnsan sayının artmasına görə GMO məhsullarının qida məhsullarının tərkibində olması qaçılmazdır. Sadəcə bu məsələyə nəzarət güclü olmalıdır".

***Anar Kəlbiyev***

13_27 IYUI-QARA.qxd 4/18/2024 11:44 PM Page 7



## "Fransa öz gözündəki tiri görmək istəmir" - Deputat



*"Fransa bəzi ölkələri müxtəlif məsələlərdə günahlandırır. Amma öz gözündə olan tiri görmək istəmir. Bu gün Fransa bəlkə də yeganə ölkədir ki, müstəmləkə ərazilərini saxlayır və dənizaşırı departamenti adı altında bu müstəmləkəçə siyasətini aparır".*

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən "Yeni Kaledoniya: Tarix, Müasir çağırışlar və Gözlənilən Gələcək" mövzusuna həsr edilmiş elmi konfransda deputat Tural Gəncəliyev deyib.

"Beynəlxalq hüquq üzrə təhsil alanda sadəlöhvlük ilə inanırdım ki, beynəlxalq hüquq normalarına böyük ölkələr tərəfindən riayət olunacaq. Amma onu görürük ki, başqalarını insan hüquqlarının pozulmasında ittiham edən Fransa 1873-cü ildə bəri kanak xalqını işğal altında saxlayır. Onların bütün hüquqlarını pozur", - deyə deputat bildirib.

## Qubad İbadoğluya yekun ittiham elan edildi



*Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlunun cinayət işi üzrə ibtidai istintaq yekunlaşır.*

"Unikal" xəbər verir ki, bu barədə onun vəkili Bəhruz Bayramov məlumat verib.

Vəkil deyib ki, Q.İbadoğluya Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 167-3.1-ci (dini ekstremist materialları hazırlama, saxlama və ya yayma) maddələri ilə yekun ittiham elan edilib.

Müdafiə tərəfi işlə tanış olub, vəsatətlərini verdikdən sonra toplanmış materiallar baxılması üçün məhkəməyə göndəriləcək.

Qeyd edək ki, professor Qubad İbadoğlu 9 ay əvvəl həbs edilib.

## "Fransa demokratik ideyaları məhv edir" - Səməd Seyidov



*"Bu gün Fransanın ən böyük cinayətlərindən biri ondan ibarətdir ki, demokratik ideyaları məhv edir. Faktiki olaraq demokratiya uğrunda mübarizəni heçə endirmək cəhdini və heçə endirərək bu dəyərləri ucuzlaşdırdı".*

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən "Yeni Kaledoniya: Tarix, müasir çağırışlar və gözlənilən gələcək" mövzusuna həsr edilmiş elmi konfransda MM-in Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib.

Komitə sədri bildirib ki, heç vaxt bir həqiqəti yaddan çıxarmalı deyilik: "Tarixdə unikal hadisələr baş verir. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi regional yox, dünya səviyyəli hadisədir".

**Anar Kəlbiyev**

# "Cəmiyyətimizin özəyi gözümüz baxa-baxa məhv edilir"

### Tahir Kərimli: "Azərbaycan kimi xalqların və dövlətlərin yeganə ən böyük dəyəri ailə institutunun möhkəmliyidir, özək məhv olsa, hər şey məhv olacaq"

*Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, Xəzər dənizində süni torpaq sahələrinin yaradılmasının məqsədlərindən, Azərbaycanda ailə məhkəmələrinin yaradılması təklifindən, TikTok-un ölkəmizdə bağlanma ehtimalından və sosial şəbəkələr haqqında qanun layihəsinin hazırlanmasının mümkünlüyündən danışıb.*

***-Tahir müəllim, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanun layihəsi müzakirə olundu. Xəzər dənizində süni torpaq sahələrinin yaradılması hansı yeni imkanlar yaradacaq?***



-Bu, beynəlxalq praktikada var. Məsələn, Çin hərbi məqsədlər üçün süni ada düzəltmişdi. Bizdə isə əsasən turizm məqsədləri üçün yaradılır. Yaradılacaq süni torpaq sahələri dövlət mülkiyyətində olacaq. Xarici vətəndaşlar süni ada düzəltmək fikrinə düşsələr, onların Azərbaycan qanunvericiliyinə görə mülkiyyət hüquqları olmayacaq. Bizim vətəndaşlarımız düzəldə bilər. Amma icarə münasibətləri olacaq. Qanunda tikintinin başa çatması üçün müəyyən vaxtlar götürülür. Bu işə nəzarət Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsində olacaq. Bu məsələ bir sıra başqa qanunlarla da tənzimlənəcək. Qanun əsasən, Xəzər dənizində turizm məqsədləri üçün süni adaların yaradılmasına imkan verəcək. Bu həm də ərazimizin genişlənməsi olar. Digər tərəfdən Xəzərin suyu geri çəkilir. Qanun layihəsi beynəlxalq konvensiyalara uyğundur. Xəzər dənizində adətən iki ay mövsüm olur. Bəzən də həmin müddət küləkli keçir. Xarici vətəndaşlar da burada turizm obyektinin yaradılmasına çəkinirdilər. İndi belə turizm obyektlərinin yaradılmasına qərar verilib. Eyni zamanda orada kiçik gəmi limanları da düzəltmək olar. Hazırda Nargin və digər adalarımız da var. Onların da üzərində işləmək lazımdır ki, turistlər üçün cəlbedici obyektlərə çevrilsin.

***-Bu günlərdə parlamentdə keçirilən ictimai dinləmədə Azərbaycanda ailə məhkəmələrinin yaradılması təklif olunub. Statistika göstərir ki, son vaxtlar boşanmaların sayı artıb. Ailə məhkəmələri boşanmaların qarşısının alınmasına kömək edə bilərmi?***

-Həmişə boşanmaların əsas səbəblərini sosial problemlərlə bağlayırıq. Problemlərdən biri odur ki, maddi vəziyyətdən başqa, həm də Qərbin texnologiyalarını istifadə edərək ailə institutunu dağıtmaq istəyirlər. Bir evdə 3-4 nəfər oturur və hamısının əlində telefon var. Hərə bir niyyətlə baxır, nümunə götürür. Son vaxtlar gender bərabərliyi adı altında xanımların azad, müstəqil fikirləri var. Məsələn, uşağa bir sillə vurursan, dərhal deyirlər ki, zorakılıq tətbiq olunub məhkəməyə şikayət elə və s. Əvvəllər belə şeylər yox idi. İndi insanları öyrədirlər. Ailə institutu itir, müəyyən təsirlər gəlir. Ailə məhkəmələrinin yaradılması təklifinə hörmətlə yanaşıram. Amma məsələni yaradan səbəb aradan qalxmalıdır. Səbəb aradan qalxmasa, mümkün deyil. Xüsusilə xanımlar boşanırlar, aliment alırlar, azad olub gedib müğənnilik edirlər, başqa xidmət sahələrində özlərini göstərirlər ki, guya sərbəstdirlər. İkinci Dünya müharibəsində xanımlar həyat yoldaşını itirdikdən sonra ailə qurmayıblar. Və yaxud namusla, qeyrətlə ailə qurublar. Bəyəm bizim ağır vaxtlarımız olmayıb? Guya ailələr maddi vəziyyətə görə dağılır? Hesab edirəm ki, əsas səbəb xaricin apardığı təbliğatdır. Bizim daxilimizdə də belə qüvvələr tapırlar. Təknikahlıq, qadını sərbəstliyə səsləyən çağırışlar var. Əsas səbəbi həll etmədən hansısa məhkəmənin problemi həll etməyinə inanmıram.

***-Siz də telefonlardan geniş istifadəni qeyd etdiniz. Qırğızıstan Milli Təhlükəsizlik Komitəsi respublika ərazisində TikTok sosial şəbəkəsinə girişin məhdudlaşdırılması barədə qərar qəbul edib. Son vaxtlar ölkəmizdə də TikTok-un bağlanması ilə bağlı təkliflər səsləndirilir. Həmçinin, sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə uyğun olmayan qeyri-etik paylaşımlar və çağırışlar edən şəxslərə bağlı polis əməkdaşları tərəfindən qanunamüvafiq tədbirlər görülür. Sizcə, Azərbaycanda da TikTok-un bağlanması gözlənilirmi?***

-Bəzən bu məsələləri komitə və plenar iclasda qaldırıram. Mənə deyirlər ki, sənin özünü ən çox TikTok-da paylaşırlar. Sən nəyə görə narazısan? Deyirəm ki, elə təbliğat, hörmət, şöhrət mənə lazım deyil. Ən çox narahat olduğum məsələ cəmiyyətin deqradasiyası, uşaqların tərbiyəsinin və ailə münasibətlərinin pozulmasıdır. TikTok və digər sosial şəbəkələrdə həmişə yaxşı şeylər vermirlər. Türkiyə, ABŞ və digər ölkələrdə belə təcrübə var. Qırğızıstan heç də varlı dövlət olmamasına baxmayaraq, məhdudiyyət qoymaq imkanlarını araşdırır. Biz ən azı ciddi məhdudlaşdırıcı senzura qurmalıyıq. Mənəviyyatımız artıq əldən gedir. Azərbaycan kimi xalqların və dövlətlərin yeganə ən böyük dəyəri ailə institutunun möhkəmliyidir. Dövlət ali təşkilatdır, ailə də kiçik təşkilatdır. Özək məhv olsa, hər şey məhv olacaq. Cəmiyyətimizin özəyi gözümüz baxa-baxa məhv edilir. Eyni zamanda pislik arta-arta gedir. Azərbaycanda hökmən sosial şəbəkələr üzərində mənəvi senzura yaratmaq lazımdır. Bunun üçün dövlət də kifayət qədər vəsait ayırmalıdır.

***-Sizin həmkarlarınızdan bir neçəsi sosial şəbəkələrlə bağlı qanun layihəsinin hazırlanmasını da təklif edirdilər. Sosial şəbəkələrlə bağlı qanun layihəsi qəbul edilə bilərmi?***

-Burada təhqir və böhtana görə də məsuliyyət müəyyənləşməlidir. Sosial medianı mediaya aid etmirlər. Mediada min nəfərin oxuduğu bir məlumata görə cinayət işi başlanır, inzibati məsuliyyətə cəlb olunurlar. Amma sosial şəbəkələrdə yüz minlərin qraşısında insan təhqir olunur, böhtan atılır, ona qarşı məsuliyyət hissi yoxdur. Hesab edirəm ki, sosial medianı da qanuna daxil etmək lazımdır. Deyirlər ki, minlərlə belə halın qarşısını necə alaq? Qırmızı xətti keçənlərlə bağlı bunu tətbiq etmək lazımdır. Bu sahə ilə bağlı müstəqil qanunun qəbul olunması ideyası var. Amma müvafiq Cinayət və İnzibati Xətalar Məcəlləsinə, digər qanunlara əlavələr, düzəlişlər etməklə birinci mərhələdə qarşısını almaq olar. Zərurət yarandıqda bunu ana qanun şəklinə də salmaq olar.

**Anar Kəlbiyev**

13_27 IYUl-QARA.qxd 4/18/2024 11:44 PM Page 8



# Cahangir Əsgərov sonuncu vəzifəsini də itirdi

## İddia: növbə onun ölkə hüdudlarını da aşan ailə biznesinə çatır?

***Bu günlərdə məlum oldu ki, Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) sabiq sədri Cahangir Əsgərov daha bir vəzifədən azad edilib. Belə ki, bir neçə ildir Milli Aviasiya Akademiyasında Avianəqliyyat istehsalatı kafedrasının müdiri vəzifəsini tutan C.Əsgərov bu yaxınlarda təhsil ocağındakı vəzifəsini itirib (modern.az).***

Cahangir Əsgərovun adı Milli Aviasiya Akademiyasının saytından da çıxarılıb. Belə ki, saytda hazırda Avianəqliyyat istehsalatı kafedrasının müdirinin texnika üzrə fəlsəfə doktoru, dosent Elman Nəcəfov olduğu bildirilib.



Qeyd edək ki, bu kafedranın daxil olduğu Nəqliyyat texnologiyaları fakultəsinin dekanı vəzifəsini Nazim Nağıyev icra edir. N.Nağıyev Bakının Səbail və Binəqədi rayonlarının polis rəisi işləyib, istefada olan polkovnikdir.

AZAL-ın keçmiş sədri Cahangir Əsgərovun bu şirkətdəki 27 illik karyerasına 2023-cü ilin sentyabrın 1-də son qoyulub. O, ölkə başçısının sərəncamı ilə tutduğu vəzifədən azad edilib.

Yada salaq ki, Cahangir Əsgərov 1996-cı ildən ”Azərbaycan Hava Yolları” QSC-nin sədri idi. 27 il AZAL-a rəhbərlik edən C.Əsgərov bu posta gəlməzdən öncə aviadəstə kapitanı, eskadrilya komandirinin müavini, eskadrilya komandiri, 1993-cü ildən AZAL-ın Türkiyədə baş nümayəndəsi vəzifələrində işləyib.

Onu da deyək ki, Cahangir Əsgərov 27 illik karyerası dövründə bir sıra qalmaqallarla yadda qalıb. Onun rezonans doğuran qalmaqallarından biri ”Abşeron” otellə bağlıdır.

Bu hadisə təxminən 6 il əvvəl baş vermişdi. Həmin vaxt mediada yayılan məlumatlarda bildirilirdi ki, Cahangir Əsgərov ”Abşeron” otelinin restoranında pomidor-yumurta çığırtması sifariş edib. Lakin yemək Cahangir Əsgərovun xoşuna gəlməyib. O kobud şəkildə ofisianta etiraz edib. Yeməyin yaxşı bişirilmədiyini iddia edib. Cahangir Əsgərovun ətrafındakılar müdaxilə edərək qalmaqalın davaya çevrilməsinin qarşısını alıb.

Bundan başqa, Cahangir Əsgərovun AZAL-dakı fəaliyyəti daim tənqid olunub. AZAL-da biletlərin baha satılması, müxtəlif maxinasiyalar və s. bu kimi qanunsuzluqlar barədə mediada kifayət qədər yazılıb.

Cahangir Hacıyevin fəaliyyəti ölkə başçısı səviyyəsində də ciddi tənqid olunub. ”Aviabiletlərin qiyməti bəzi hallarda süni şəkildə qaldırılır. Sual olunur: nəyə görə? Nə üçün?.. Azərbaycan yanacağı xaricdən almır, özü istehsal edir. Başqa ölkələrə nisbətən ağ neft ucuz qiymətə verilir axı! AZAL dövlət tərəfindən böyük subsidiyalar alır. Bütün təyyarələr dövlət büdcəsinin vəsaiti hesabına alınır, bütün aeroportlar dövlət hesabına tikilir, bütün şərait dövlət hesabına yaradılır. Nəyə görə biletlərin qiyməti başqa ölkələrə, şəhərlərə nisbətən baha olmalıdır? Nə üçün?”, deyə Prezident İlham Əliyev müşavirələrin birində bildirmişdi.

Nəticə etibarilə Əsgərov AZAL-dakı postunu itirdi və bu yaxınlarda Milli Aviasiya Akademiyasında Avianəqliyyat istehsalatı kafedrasının müdiri vəzifəsindən azad olunmaqla tamamən işsiz qaldı. İndi onun bütün diqqətini öz nəhəng biznes imperiyasının idarəçiliyinə yönəltdiyini düşünmək olar.

Lakin bəzi iddialara görə, Cahangir müəllimin ölkə hüdudlarını belə aşan ailə biznesinin də təhlükə altında olduğuna dair iddialar səsləndirilir. Həmin iddialara inansaq, Əsgərovun bəzi şirkətləri də onun nəzarətindən çıxarıla bilər.

Məlumatlara görə, AZAL-ın sabiq rəhbərinin biznes imperiyasına Batumidə 31 milyon dollar dəyərində “Grand Gloria” hoteli, Tiflisdə dəyəri milyonlarla dollar olan “Tiflis Paslace” hoteli və bahalı “Veranda” restoranı, yenə Batumidə bir neçə milyon dollar dəyərində ”Golden Palace” hoteli və kazinosu, Naftalanda “Garabag Resort and Spa” 5-ulduzlu otel və müalicə mərkəzi; İsmayıllı rayonunda, Bədo Bulağının yaxınlığında, 8 hektarlıq ərazidə “Vəhsudan düşərgəsi”, həmçinin “Premium Bank” ASC (keçmiş “Silkyway”), sahəsi 12.500 kvadrat metrdən artıq Gazelli kosmetika fabriki, Londonda ”Soroka Limited”, 18.4 milyon dollarlıq aktivləri olan “Gazelli İnternational Limited”, 41 milyon dollarlıq aktivləri olan ”Gazelli Art House Limited” şirkətləri, Gürcüstan, Azərbaycan, Ukrayna və Türkiyədə “Gazelli” gözəllik və masaj salonları şəbəkəsi, Türkiyədə “D.M.Z.D.Tekstil Dış Ticaret Limited” şirkəti və s. daxildir.

Bundan başqa, Əsgərovun italyan kürəkəni Ignazio Koraçinin direktoru olduğu ”Airport Servicing Company Limited” törəmə şirkəti, Londonda ”ASC Handling İtalia Limited”, ”Cargo İnvest Limited”, ”AS582 Limited”, ”Aviation Servicing Company Limited” (əvvəlki adı Azerbaijan Airlines Uk Limited, aktivləri isə 1 milyon dollardan artıq) və s. kimi şirkətlər də Cahangir müəllimin nəhəng biznes imperiyasının parçalarıdır. Onun digər Avropa ölkələrində, məsələn, Almaniyada da şirkətləri var. Bu ölkədəki ”Hahn Cargo Services GmbH” adlı törəmə şirkətinin illik dövriyyəsi iki il öncə 4.83 milyon dollar olaraq açıqlanmışdı.

Bütün bu şirkətlər C.Əsgərovun və ailəsinin sahib olduğu biznesin heç də hamısı deyil. İstisna olunmur ki, tezliklə həmin şirkətlərin bir çoxu artıq onun nəzarətindən çıxarılacaq.

***Toğrul Əliyev***

# Ağdamdakı Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti dayandırılır



***Ağdamda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti dayandırılacaq.***

“Unikal” xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi İctimaiyyətlə Əlaqələr və Mətbuat müşaviri kontr-admiral Zeki Aktürk keçirdiyi brifinqdə danışıb.

Onun sözlərinə görə, Mərkəzin fəaliyyətinin dayandırılması istiqamətində Azərbaycan və Rusiya ilə koordinasiyalı qaydada iş aparılır: “Türkiyə Respublikası ilə Rusiya Federasiyası arasında imzalanan Memorandumla Qarabağ bölgəsində atəşkəs rejiminə nəzarət etmək və qanun pozuntularının qarşısının alınması məqsədi ilə 2021-ci il yanvarın 30-da Azərbaycanın Ağdam şəhərində yaradılmış Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətini tamamlamaq üçün proses Rusiya Federasiyası və Azərbaycan ilə koordinasiyalı şəkildə davam etdirilir”, - məlumatda bildirilir.

Qeyd edək ki, 2020-ci il noyabrın 11-də Rusiya və Türkiyə müdafiə nazirləri Azərbaycanda Rusiya-Türkiya Birgə Monitorinq Mərkəzi yaratmaq barədə anlaşma memorandumu imzalayıblar. Mərkəz növbəti il yanvarın 30-dan etibarən fəaliyyət göstərməyə başlayıb.

Monitorinq mərkəzinin türkiyəli şəxsi heyətinə general-mayor Abdullah Katırcı, rusiyalı şəxsi heyətinə isə general-mayor Viktor Fedorenko rəhbərlik edir.

# Parlamentlərimiz əməkdaşlıq memorandumu imzaladı



***Milli Məclisin sədri Sahibə Qafarova və Yeni Kaledoniya parlamentinin sədri Rok Vamitan (Rock Wamytan) Əməkdaşlıq Memorandumu imzalayıblar.***

“Unikal” xəbər verir ki, sənəd spikerlər arasında keçirilən görüşün nəticəsində imzalanıb.

Memoranduma əsasən, Azərbaycan Milli Məclisi Yeni Kaledoniya xalqının öz müqəddaratını təyinetmə hüququnu nəzərə alır və mövzu ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandıracaq.

Həmçinin Milli Məclis və Konqres Azərbaycan və Yeni Kaledoniya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi naminə parlamentlərarası əməkdaşlığı inkişaf etdirəcəklər.

Bununla yanaşı, memorandum çərçivəsində qanunvericilik orqanlarının komissiyaları, komitələri və orqanları arasında daimi əlaqələrin yaradılması, parlament üzvlərindən ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərləri nəzərdə tutulur.

Qeyd edək ki, parlamentlərarası əlaqələri inkişaf etdirmək məqsədilə tərəflər deputatlardan ibarət müvafiq qrup yaradacaqlar.

# Məktəblərdəki yoxlamalardan sonra 55 nəfər işdən çıxarılıb

***Bu ilin üç ayında 345 məktəbdə yoxlama aparılıb, 55 nəfər işdən çıxarılıb.***

”Unikal” xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru aprelin 18-də keçirilən hesabat tədbirində deyib.

Onun sözlərinə görə, həmin müddətdə 89 nəfərə xəbərdarlıq, töhmət və şiddətli töhmət verilib.

Sertifikatlaşdırmadan keçə bilməyən təxminən 400-ə yaxın müəllim öz ərizəsi ilə işdən ayrılıb. Eşqi Bağırovun sözlərinə görə, ötən il uğursuz olan müəllimlər isə bu il növbəti dəfə sertifikatlaşdırmaya cəlb ediləcək.

# 40-a yaxın bağça müdiri işdən çıxarılıb



***40-a yaxın bağça müdiri işdən çıxarılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov hesabat brifinqində deyib.

"Bağçalarda nöqsanlarla bağlı şikayətlər alırıq. Bu səbəbdən agentlik bağçalarda mütəmadi monitorinqlər aparır. Monitorinqlərin nəticəsində 200-ə yaxın müdirə töhmət, xəbərdarlıq verilib", - deyə E.Bağırov bildirib.

# Prokurorluq qonşusunu öldürməkdə təqsirləndirilən şəxslə bağlı məlumat yaydı



***Cari il yanvarın 1-də Tərtər rayon sakini 2006-cı il təvəllüdlü Canpolad Tağıyevin yaşadığı binanın qarşısında öldürülməsi faktı üzrə rayon prokurorluğunda başlanmış cinayət işi üzrə istintaq tamamlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Tərtər rayon prokurorluğu məlumat yayıb.

İbtidai istintaqla 2009-cu il təvəllüdlü Fuad Quluzadənin qonşusu Canpolad Tağıyev ilə aralarında yaranmış mübahisə zamanı sonuncunun qardaşının gözləri qarşısında bıçaqla xəsarət yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Fuad Quluzadəyə Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla qəsdən adam öldürmə) maddəsilə yekun ittiham elan edilib, müstəntiqin vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən rayon prokurorunun təqdimatı əsasında barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Xaricdə işlə təmin etmək adı ilə vətəndaşları aldadan şirkət rəhbərləri saxlanıldı

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən və vətəndaşlardan daxil olmuş məlumatlar üzrə aparılmış araşdırma əsasında "Recent Group" və "Area Alfa Group" Məhdud Məsuliyyətli Cəmiyyətlərinin rəhbər vəzifəli şəxsləri barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

İstintaqla qeyd edilən hüquqi şəxslərin direktorları Sevinc Aslanova və Kamil Curayevin Almaniya, Hollandiya, Slovakiya və başqa ölkələrə iş vizası və dəvəti alınması, eləcə də digər növ məşğulluq məsələlərinin həllinə dair yalan vədlər verməklə 2023-2024-cü illər ərzində ayrı-ayrı vətəndaşlara məxsus müxtəlif məbləğlərdə pul vəsaitlərini onların etibarından sui-istifadə edərək almalarına dair əsaslı şübhələr müəyyən edilib.

Hazırda qeyd olunan bütün faktlar üzrə zərərçəkmiş şəxslərin dairəsi və vurulmuş ziyanın məbləğinin tam müəyyən edilməsi istiqamətində istintaq tədbirləri davam etdirilir.

# Oliqarxlara milyonlar qazandıran bizneslə bağlı böyük müəmma...

## Azərbaycanda köhnə mübahisə yenidən qızışdı, inhisarçılar təlaşlandı - Palma yağının idxalı dayandırıla bilər?

***Azərbaycanda palma yağları ilə bağlı yenidən həyəcan siqnalı çalınıb. "Palma yağlarının ərimə temperaturu 37 dərəcədir. Əgər bu yağlar insan bədənində həll edilmirsə, deməli palma yağlarının ölkəyə idxal edilməsi qadağan edilməlidir" - deyə Milli Məclisdə keçirilən ictimai dinləmədə deputat Fəzail Ağamalı deyib.***

O bildirib ki, Dövlət Gömrük Komitəsi öz məsuliyyəti çərçivəsində bu məsələləri həll etməlidir: "Biz bu qidaların Azərbaycana gətirilməsinin qarşısını ala bilsək, qida təhlükəsizliyi sahəsində inqilabi dəyişikliklər edə bilərik".

Milli Məclisin Aqrar siyasət komitəsinin "Qida təhlükəsizliyi sistemi və onun vahid sağlamlıq konsepsiyasında rolu" mövzusunda keçirilən həmin ictimai dinləmədə çıxış edən parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov isə vurğulayıb ki, trans yağlar bədxassəli şişlərin əmələ gəlməsində əsas rola malikdir.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli isə ictimai dinləmədəki çıxışında bugünədək ölkədə istehsal olunan, eləcə də idxal olunan bitki yağlarında, o cümlədən palma yağında aparılan müayinələrdə heç bir uyğunsuzluq aşkar edilmədiyini bildirib. Onun sözlərinə görə, beynəlxalq təşkilatların heç birində palma yağının özünəməxsus hər hansı təhlükəsi ilə bağlı məlumat dərc edilməyib.

Q.Təhməzli deyib ki, dünyada istehsal olunan palma yağının təxminən 72 faizi qida sənayesində istifadə olunur: "Statistikaya əsasən dünyanın ümumi bitki yağı ehtiyacının 33 faizi palma yağı hesabına təmin edilir. İlk dəfə palma yağı ətrafında müzakirələr 2016-cı ildə Avropa Qida Təhlükəsizliyi Qurumu (EFSA) tərəfindən bütün bitki yağlarının, o cümlədən palma yağının emalı zamanı yaranan müəyyən kimyəvi maddələrlə bağlı məqalə dərc olunduqdan sonra aktuallaşıb. Qida təhlükəsizliyi qanunvericiliyində ən aktual məsələlərin nəzərə alınması və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədilə eyni tənzimləmə 2020-ci ildən etibarən ölkəmizdə də tətbiq edilməyə başlanıb".

Bəzi araşdırmaçıların fikrincə isə palma yağının gündəlik norma çərçivəsində qəbul edilməsi orqanizm üçün təhlükəli deyil. Belə ki, heyvanlar üzərində aparılan bir sıra tədqiqatlar göstərir ki, bir neçə dəfə təkrar istifadəyə verilən palma yağı antioksidant xüsusiyyətinin azalması ilə əlaqədar aterosklerotik dəyişikliklərə səbəb ola bilər. Siçanlarda 10 dəfə qızdırılan palma yağı ilə bişən yeməyi yedikdən sonra altı ay ərzində aterosklerotik lövhələr və ürək xəstəliklərinin digər əlamətləri inkişafı özünü göstərsə də, yeni palma yağı ilə bişən yemək ilə qidalandıqdan sonra bu simptomlar ilə qarşılaşılmayıb.

Onu da deyək ki, reallıqda heç bir heyvan və bitki yağında, hətta balıq yağında belə palma yağındakı qədər A vitamininin olmadığı bildirilir. İddia olunur ki, həmin yağın tərkibində zərərli xolesterin yoxdur. Bəs palma yağını polemika mövzusuna çevirən nədir? Bu suala cavab olaraq bildirilir ki, palma yağının əsas zərərli tərəfi onun tərkibində doymuş yağların çox olmasıdır.

Son illərdə Azərbaycana palma yağının idxalındakı sürətli artış müzakirələrə səbəb olub. Bir çoxlarının fikrincə, ölkədə qənnadı sənayesinin inkişafı palma yağının idxalını zəruri edib. Ümumiyyətlə isə palma yağının dünyada istehsal və istehlakının artımında başlıca səbəbi hazır yemək və yarımfabrikat məhsullar göstərilir. Həmin qidaların isə ümumilikdə insan sağlamlığı üçün təhlükə təşkil etməsində əksəriyyət həmfikirdir.



Bu yerdə pediatrların bir xəbərdarlığını da xatırlatmaq yerinə düşür: uşaqlar hazırlanmasında palma yağından geniş istifadə edilən şokolad, konfet, şirniyyatlar, şokolad yağı və s. məhsullardan uzaq tutulmalıdırlar. Vurğulanır ki, tərkiblərində palma yağı azdırsa belə, onun hüceyrələrə dağıdıcı təsiri heç də az deyil.

Daha bir problemli məqama diqqət çəkmək istərdik: Azərbaycanda satışda olan yağlar və eləcə də digər məhsulların tərkibində qarışıqların, o cümlədən palma yağının olması baxımından istehlakçılar bu və ya digər şəkildə faktiki aldadılırlar. Nəyi nəzərdə tuturuq? Bu gün satışda olan yağların, eləcə də digər məhsulların üzərində "Tərkibində palma yağı var" sözlərini görmək mümkün deyil. Bu sözlər ya yerli-dibli yazılmır, ya da məhsulun tərkibi bilərəkdən çox kiçik hərflərlə yazılır ki, onu oxumaq qeyri-mümkün olsun.

Başqa bir düşündürücü məqam: palma yağı 1970-ci illərdən İndoneziya və Malayziyada yemək yağı kimi istifadə olunur. Dünyada palma yağının ən böyük istehsalçı və ixracatçıları da elə İndoneziya və Malayziyadır. 2019-cu ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ekspertlərinin palma yağı ilə bağlı hesabatı açıqlandı. Hesabat müəllifləri etiraf edirdilər ki, bəzən elmi jurnallarda palma yağının zərərsizliyi və hətta sağlamlıq üçün faydası barədə məqalələr çıxır. Lakin araşdırmalar zamanı məlum olub ki, doqquz bu cür məqalədən dördünü Malayziya Kənd Təsərrüfatı Nazirliyinin bu sənayenin inkişafına cavabdeh olan şöbəsinin əməkdaşları hazırlayıblar!

O da qəribədir ki, ÜST-in haqqında bəhs olunan hesabatı ictimaiyyətə tam açıqlanmadı. Bunun niyəsi hələ də məlum deyil. Məlum olan bircə odur ki, palma yağının zərərləri, sağlamlığa təhlükələri ilə bağlı müzakirələrdə bu yağın istehsalını, ixracını, yaxud idxalını həyata keçirənlər qətiyyən maraqlı görünmürlər.

Bəzi qida təhlükəsizliyi ekspertlərinin fikrincə, bunun sadə səbəbi var: sözügedən yağın istehsalçıları ilə yanaşı, onun satışından milyonlar qazanan oliqarxlar, şirkətlər üçün kapital hərisliyi hələ də insan sağlamlığından öndə gəlir...

***Sənan Mirzə***

# Ülvi Mansurov vəzifəsindən uzaqlaşdırıla bilər

## Hesablama Palatasının Dövlət İnvestisiya Şirkəti ilə bağlı şok hesabatı nələr vəd edir?

***Bu günlərdə məlum oldu ki, Hesablama Palatası Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyətini audit edib və çoxsaylı nöqsanlar aşkarlayıb. Palatanın açıqladığı audit qiymətləndirməsindən aydın olur ki, AİŞ 2021-2022-ci illər üzrə riskli və səriştəsiz yatırımlar edib. Yatırım etdiyi şirkətlər sırasında cəmi bir şirkət divident ödəyib.***

Şirkətin rəsmi səhifəsində göstərilib ki, AİŞ-in prioritet vəzifələri Azərbaycanda həyata keçirilən əlverişli layihələrə investisiya qoymaq, birbaşa investisiyalar, istedad və texnologiyaların Azərbaycana cəlb edilməsi üzrə katalizator olmaq, qeyri-neft sektorunun inkişafına töhfə vermək, iqtisadiyyatın inkişafına, habelə iqtisadi diversifikasiya və idxal əvəzləyici proseslərə dəstək verməkdir.

Hesablama Palatası isə açıqlayıb ki, AİŞ bütün bunları nəzərə almayıb və əsas istiqamətini asan gəlir yeri kimi qiymətli kağızlara yönəldib: “AİŞ-in idarə olunan aktivlərinin böyük hissəsini dövlət və korporativ istiqrazlar təşkil edib, auditlə əhatə olunan dövrdəki gəlirlərinin əsas hissəsi bu qiymətli kağızlar üzrə ödənilmiş faizlər hesabına formalaşıb. Belə ki, auditlə əhatə olunan dövrün sonuna AİŞ-in idarə olunan aktivlərinin 60,1 faizini onun istiqraz portfeli təşkil edib, ümumiyyətlə, AİŞ-in 2021-ci ildə əldə etdiyi gəlirlərin 69,4 faizini, 2022-ci ildə isə 83,2 faizini istiqrazlardan gəlirləri təşkil edib”.

Palata həmçinin əlavə edib ki, AİŞ “Bakı Gəmiqayırma Zavodu” MMC-yə və ona məxsus qiymətli kağızlara nizamnamə kapitalının 64,8 faizi həcmində investisiya edib. Bu da portfelin böyük hissəsinin bir aktivə yatırılması ilə bağlı konsentrasiya riski yaratmaqdadır.

Aşkar edilən nöqsanlar bununla da yekunlaşmır. 2022-ci ildə “Azərbaycan Biznesin İnkişafı Fondu”nun yaradılması təmin edilmədiyindən onun üçün nizamnamə kapitalı kimi nəzərdə tutulmuş 43 milyon manat AİŞ-in nizamnamə kapitalına yönəldilib. AİŞ isə bir gün sonra həmin vəsaitin 46,5 faizini dövlət qiymətli kağızlarına yatırıb.

Qeyd edək ki, Azərbaycan İnvestisiya Şirkəti Prezidentin müvafiq sərəncamı ilə 2006-cı ildə yaradılıb. AİŞ-in bütün payları Azərbaycan dövlətinə məxsusdur. Şirkət Müşahidə Şurası tərəfindən idarə edilir. AİŞ-in məqsədi Azərbaycanın qeyri-neft sektoruna kapital investisiyalarının yatırılmasıdır.

Şirkətin saytında yerləşdirilən məlumatdan aydın olur ki, 18 ildə cəmi 22 layihəyə 184,6 milyon dollar yatırım edilib.

Hesablama Palatası qeyd edir ki, auditlə əhatə olunan dövrdə “Azərbaycan İnvestisiya Şirkəti”nin (AİŞ) gəlirlilik göstəricilərinin əvvəlki dövrlərlə müqayisədə artması və likvid vəsaitlərin idarəolunması istiqamətində pozitiv dəyişikliklər fonunda, əvvəlki illərdə investisiya yönəldilmiş portfel şirkətlərin maliyyə vəziyyəti əsasən qənaətbəxş olmayıb, bəzi layihələrin AİŞ-in maliyyə hesabatlarında əks olunan ədalətli dəyəri həmin layihələrin nominal dəyərindən aşağı olub. Həmçinin portfel şirkətlərin satışından gəlirlər həmin gəlirlərin əldə edilməsi üçün çəkilən xərclərdən dəfələrlə az olub.

Hesablama Palatasının auditi nəticəsində ortaya çıxan ciddi nöqsanlardan bəziləri də diqqət çəkir. Məsələn: AİŞ-in auditlə əhatə olunan dövrdə investor cəlb etmə sahəsində fəaliyyətinin nəticəliliyinin aşağı olması səbəbindən AİŞ-in auditlə əhatə olunan dövrdə aktiv olan 12 layihəsindən 6-sı eyni tərəfdaşlarla icra edilib; layihələrin qiymətləndirilməsi mərhələsində investorların layihəyə marağının və xarici faktorların təsirinin düzgün qiymətləndirilməməsi nəticəsində 2021-ci ildə AİŞ-in Müşahidə Şurası tərəfindən təsdiq edilmiş 2 layihənin icrası qısa müddət sonra təmin edilə bilməyib, nəticədə həmin layihələrdə iştiraka dair qərar ləğv edilib; müəyyənləşib ki, AİŞ-in investisiya yatırdığı bəzi layihələrin bazar dəyərinin azalması səbəbindən onların auditlə əhatə olunan dövrdəki konsolidə edilmiş maliyyə hesabatlarında əks olunan ədalətli dəyəri AİŞ-in həmin layihələrə yatırdığı investisiyanın nominal dəyərindən aşağı olub və s. və i.a.

Ümumilikdə AİŞ-in portfel şirkətləri üzrə 2021-ci ildə ümumi zərər məbləği 72.142,0 min manat, 2022-ci ildə isə 4.611,0 min manat təşkil edib. Ümumi zərər məbləğində ildən-ilə azalma, əsasən, “Bakı Gəmiqayırma Zavodu” MMC-nin maliyyə hesabatlarında əks olunan göstəricilərin yaxşılaşması, habelə “Səba” ASC-nin AİŞ-ə təqdim edilən maliyyə hesabatlarındakı göstəricilərin ictimaiyyətə açıqlanan göstəricilərə nisbətən daha qənaətbəxş olması ilə bağlıdır.



Bundan başqa, Auditin əhatə etdiyi dövrdə AİŞ-in səhm və pay qoyuluşu portfelinin satışından gəlirləri çəkilən xərclərdən dəfələrlə az olub.

Hesablama Palatasının məlumatında auditlə ortaya çıxan digər çox sayda nöqsan da sadalanır.

Xatırladaq ki, Dövlət İnvestisiya Şirkətinin icraçı direktoru Ülvi Mansurovdur. O, həmin posta 2020-ci ildə təyin edilib. 41 yaşlı Mansurov 2012-ci ildə ”Bank Technique”nin İdarə Heyətinin sədri vəzifəsinə seçilib və bu vəzifədə 3 il çalışıb. O, 2015-ci ildə Azərbaycan Beynəlxalq Bankının İdarə Heyəti sədrinin müavini vəzifəsinə seçilib, ”Azərpoçt”un baş direktoru təyin olunub. AİŞ-də icraçı direktor vəzifəsinə təyin edilməzdən öncə isə İqtisadiyyat Nazirliyində analitik təhlil və ekspertizası departamentində baş direktor işləyib.

Hökumət dairələrində bacarıqlı kadr kimi təqdim edilən Mansurovun Dövlət İnvestisiya Şirkətinə rəhbərlik etdiyi dövr isə Hesablama Palatasının yuxarıda haqqında danışılan auditinin ardından mediada tənqid hədəfinə çevrilib. Bəzi KİVlər və müstəqil iqtisadçı ekspertlər hətta AİŞ-in öz fəaliyyətini düzgün qurmaması səbəbindən milyonlarla manatın ”batmasını” ön plana çıxarıblar. Bu səbəbdən də adı çəkilən ASC-nin rəhbərliyində dəyişiklik ola biləcəyini yazırlar. AİŞ-də yeni nəfəsə ehtyac duyulduğu, bu səbəbdən də icraçı direktorun əvəzlənməsinin mümkünlüyü vurğulanır.

***Sənan Mirzə***



# Pensiyaların yubanması ilə bağlı rəsmi açıqlama

***Bəzi sosial şəbəkə və internet resurslarında aprel ayının pensiyalarının yubanması ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir. Belə ki, pensiyaların ödənişində hər hansı bir gecikmə yoxdur.***

”Unikal” xəbər verir ki, bunu Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili bildirib.

”Respublika üzrə aprel ayının pensiyalarının ödənişi davam etdirilir. Aprelin 9-da Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə, aprelin 15-dən isə respublikanın ayrı-ayrı rayonlarında qeydiyyatda olan pensiyaçıların pensiyaları ödənilib.

Hazırda güzəştli şərtlərlə pensiya alan şəxslərin pensiyalarının ödənişi davam edir. Aprelin 19-da maliyyələşmənin tam başa çatdırılması nəzərdə tutulub. Bununla da aprel ayı başa çatmamış aprel ayının pensiyalarının ödənişi yekunlaşdırılacaq” - o qeyd edib.

# "Yağlarda təhlükəli hal aşkarlanmayıb" - Agentlik sədri



***Ticarət şəbəkələrində satılan yağların heç birində əhalinin sağlamlığına təsir edəcək təhlükəli hal aşkarlanmayıb.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisdə keçirilən ictimai dinləmədə Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli deyib.

AQTA sədri bildirib ki, istər idxal edilən, istərsə də ölkə ərazisində istehsal olunan yağlar üzərində dövlət nəzarəti həyata keçirilir: “Ona görə də istənilən ekspertizaya getməyə hazıram. Hansısa təşviş yaratmaq istəyən ekspertlərin bütün suallarını cavablandırmağa hazıram. Bəzi ekspertlər bu sahədən o qədər məlumatsızdırlar ki, çıxışlarında trans yağların sıfıra endirilməsindən danışır. Halbuki tərkibində sıfır trans yağ olan yağ ümumiyyətlə dünyada yoxdur”.

Q.Təhməzli qeyd edib ki, trans yağın iribuynuzlu heyvanın orqanizmində göstəricisi 2 %-dir: “Dünyada və Azərbaycanda bu, 2 %-lik əmsalla ölçülür. Bəzi “ekspertlər” bu göstəricinin yüksək olduğu deyilir. Trans yağ anlayışı elə bir anlayışdır ki, kənardan heç qatılmır. Hətta bu yaxınlarda antibiotiklərin dönərdə olması ilə bağlı yaramaz fikirlərlə də rastlaşdım. Bu cür insanlara açıq şəkildə deyirəm ki, ölkədə istənilən ticarət şəbəkələrində satılan yağların ekspertizinasını həyata keçirmək üçün Avropanın aparıcı ölkələrində ekspertiza etməyə hazıram”.

***Anar Kəlbiyev***

# 1-ci sinfə qəbul ediləcək şagirdlərin sayı açıqlandı

***Bu il avtomatik olaraq 1-ci sinfə qəbul ediləcək şagirdlərin sayı açıqlanıb.***

”Unikal” xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov mətbuat konfransında məlumat verib.

O bildirib ki, Azərbaycan bölməsi üzrə 82 minə yaxın uşaq məktəbəhazırlıq qrupundan avtomatik olaraq 1-ci sinfə keçiriləcək.



# Parlamentdə sağlam ailə modeli müzakirə edildi

***Aprelin 17-də Milli Məclisdə parlamentin Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə təşkilatçılığı ilə “Sağlam ailə modelinin hüquqi aspektləri - Yaşıl dünya müstəvisində” mövzusunda ictimai dinləmə keçirilib.***

“Unikal” xəbər verir ki, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında Prezident İlham Əliyevin Hacıqabulda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimində çıxışına toxunaraq dünyada baş verən hadisələrin, ətraf mühit və iqlim dəyişikliklərinin bütövlükdə bəşəriyyəti düşündürdüyünü deyib. Qeyd edib ki, insanların gələcəyinin, bütövlükdə planetimizin varlığının ekoloji problemlərin həllindən asılı olması artıq təsdiqlənib.

2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edildiyini xatırladan komitə sədri ölkəmizin işğaldan azad olunmuş ərazilərinin “Yaşıl enerji” zonası elan olunmasının əhəmiyyətindən söz açıb.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bu il Azərbaycanda keçiriləcək COP29 çərçivəsində görüləcək işlərə toxunub, ölkəmizdə ekoloji sağlamlığın təmin olunması, gələcək nəsillərə təmiz ekoloji mühitin ötürülməsi məqsədilə müvafiq addımların atıldığını söyləyib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxışında deyib ki, Prezident İlham Əliyevin 2010-cu ili Azərbaycanda “Ekologiya ili” elan etməsi dövlətimizin ətraf mühitin mühafizəsi və əhalinin sağlamlığı məsələlərinə böyük diqqətinin və qayğısının təzahürüdür. Ölkəmizdə texnoloji sıçrayışlara əsaslanan dördüncü sənaye inqilabı çərçivəsində ekoloji təmizliyin təmin olunmasında texnoloji yeniliklərin tətbiqinin əhəmiyyətini vurğulayan komitə sədri bu istiqamətdə atılan addımlardan danışıb.

Səhiyyə nazirinin müavini İlqar Qasımov mövzu ilə bağlı bu sahədə görülən işlər barədə ətraflı məlumat verib, Azərbaycanda ana və uşaq sağlamlığına göstərilən dövlət qayğısı barədə danışıb.

Dinləmədə Azərbaycanın 30 il ərzində məruz qaldığı ekosidin nəticələrindən danışan ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində görüləcək işlərdən bəhs edib, COP29 çərçivəsində qadınların qərarvermə prosesində fəal iştirakının əhəmiyyətini vurğulayıb.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova çıxışında kənd təsərrüfatının ətraf mühit və iqlim dəyişikliklərindən ən çox təsirlənən sahə olduğunu və bu təsirin dünyada ərzağa olan tələbatın durmadan artması ilə daha da dərinləşdiyini bildirib. O, torpağın dayanıqlı istifadəsi, pestisid və gübrə istifadəsinin normaları, həmçinin su ehtiyatlarının müasir suvarma texnologiyalarının tətbiqi ilə səmərəli istifadəsinin təmin olunması barədə fikirləri ilə bölüşüb.

Dinləmədə çıxış edən Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, deputatlar Jalə Əliyeva, Asim Mollazadə, Naqif Həmzəyev, Nəsib Məhəmməliyev, İltizam Yusifov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Ombudsman Aparatı rəhbərinin müavini Rəşid Rumzadə, QHT nümayəndələri Nigar Məmmədova, Qədir Xəlilov və Məryəm Məcidova dinləmənin əhəmiyyətini vurğulayıblar. Sağlam ailə modelinin hüquqi aspektlərinə toxunan çıxışçılar əhalinin sağlamlığının müdafiəsinin vacibliyini şərtləndirən amillərdən söz açıb, ətraf mühitin mühafizəsinin gücləndirilməsinin və ekoloji maarifləndirmənin əhəmiyyətini vurğulayıblar.

Sonra müvafiq komitələrin sədrləri, həmçinin dövlət qurumlarının nümayəndələri deputatların qaldırdığı bir sıra məsələlərə aydınlıq gətiriblər.

# Əbülfəs Qarayevin mədəniyyətdən "yediyi" pullardan yeni xəbər

## Sabiq nazirin ölkədən kənardakı biznesi çiçəklənmə dövrünə qədəm qoyub

***Sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin Rusiyada fəaliyyət göstərən şirkəti ötən il gəlirlərini 192 dəfə artırıb.***

Belə ki, sabiq nazir ötən ilin may ayında Rusiyada ”Korporaçiya ÇE” (OOO ”Korporaüiə ÇE” - İNN: 7725322819) adlı şirkətin 50%-lik payını satın alaraq 2 təsisçidən biri olub.

”Korporaçiya ÇE” şirkətinin digər təsisçisi - Əbülfəs Qarayevin biznes ortağı Rusiya vətəndaşı Levkoviç Aleksandr Nikolaeviçdir. ”Yeni Avaz”ın məlumatına görə, hər iki təsisçinin şirkətin nizamnamə kapitalındakı payı 10 000 rubl təşkil edir.

Qeyd edək ki, ”Korporaçiya ÇE” şirkəti 11 iyul 2016-cı ildə dövlət qeydiyyatına alınıb. Əbülfəs Qarayev şirkətin 50%-lik payına sahib olduqdan sonra hüquqi ünvanı - Moskva şəhəri, Dnepropetrovskaya, ev 3 koros 5, m. 3/1 ünvanına dəyişdirilib.

Şirkətin fəaliyyət sahəsinə balıq, xərçəngkimilər və molyusklar da daxil olmaqla digər ərzaq məhsullarının topdan satışı daxildir.

Məlumat üçün bildirək ki, ”Korporaçiya ÇE” şirkətinin 2023-cü ildəki ümumi gəlirləri 106 milyon 521 min rubl (1 milyon 956 min manat) olub. Bir il əvvəl - 2022-ci ildə şirkətin ümumi gəlirləri cəmi 554 min rubl (5 min 992 manat) olub. Rəqəmlərdən də göründüyü kimi, şirkətin gəlirləri son bir ildə 192 dəfə artıb.

Onu da qeyd edək ki, 1994-cü ildən 2020-ci ilə kimi - 26 il nazir vəzifəsində işləyən Əbülfəs Qarayevin qızı Suad Maleki də (Qarayeva) uzun illərdir Rusiyada biznes fəaliyyəti ilə məşğuldur.Suad Malekinin yeganə təsisçisi olduğu ”GALS” şirkəti 05 iyul 2013-cü ildə Moskva şəhəri, Tatarskaya küçəsi 7 ünvanında dövlət qeydiyyatına alınıb. Şirkət daşınmaz əmlakın alqı-satqısı ilə məşğuldur.

Mətbuatda yayılan məlumatda bildirilir ki, ”GALS” sabiq nazirin özünün və ailə üzvlərinin adının baş hərflərindən (Garaev, Abulfas, Lalə (həyat yoldaşı) və Suad (qızı)) ibarətdir.

”GALS” adı ilə Azərbaycanda fəaliyyət göstərən şirkətlərin də sabiq nazirə bağlı olduğu bildirilir. ”GALS Gallery”, ”GALS Beauty and Spa” və ”GALS” MMC-yə sabiq nazirə yaxın olan şəxslər rəhbərlik edir. Bunlardan başqa sabiq nazirin həyat yoldaşı Kazımova Lalə Tofiq qızının (Azərbaycan SSR xalq artisti, rejissor Tofiq Kazımovun qızı) rəhbərlik etdiyi ”Yol+İlk Elmi-Populyar Dərgi Redaksiyası” MMC 29 mart 2006-cı il tarixində dövlət qeydiyyatına alınıb.

Sabiq mədəniyyət nazirinin həyat yoldaşı və qızından başqa kürəkəni Şahriar Maleki də Azərbaycanda biznes fəaliyyəti ilə məşğuldur. Əslən İrandan olan Böyük Britaniya vətəndaşı Şahriar Maleki 02 noyabr 2016-cı il tarixində dövlət qeydiyyatına alınan ”Green Farm Azərbaycan” MMC-nin qanuni təmsilçisidir. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ”Green Farm Azərbaycan” MMC-yə 2017-ci ilin mayında Biləsuvar İcra Hakimiyyəti tərəfindən 5 min hektar torpaq sahəsi ayrılıb.

Əbülfəs Qarayevin kürəkəninə 5 min hektar torpaq sahəsi ayıran Biləsuvar Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Mahir Quliyev 29 aprel 2020-ci il tarixində Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi xüsusi əməliyyat nəticəsində saxlanılaraq Bakıya gətirilib. Bundan təxminən 20 gün sonra Əbülfəs Qarayev Mədəniyyət naziri vəzifəsindən azad edilib.

O həmin postu tutduğu müddətdə adıçəkilən nazirliyin faktiki olaraq rüşvət və korrupsiya yuvasına çevrildiyi 2020-ci ilin mayında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyat nəticəsində təsdiqlənib. Bu əməliyyatda Qarayevin müavini Rafiq Bayramovla Mədəni Nazirliyi yanında Mədəni İrsin Qorunması,



İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov həbs edilib. İstintaqın araşdırması nəticəsində ortaya çox sayda yeyinti faktı çıxıb. Bunun ardınca Əbülfəs müəllimin özünün də hüquqi məsuliyyətə cəlb olunacağına dair ehtimallar səsləndirilirdi. Lakin sonradan eks-nazir həbs təhlükəsindən qurtulmağı bacarmışdı.

İndi isə yayılan məlumatlardan belə aydınlaşır ki, Qarayev qısamüddətli ”şok”dan ayılıb və hazırda xaricdəki biznesini gücləndirməklə məşğuldur.

Üstəlik, söhbət onun yalnız postsovet məkanındakı biznesindən getmir. Avropanın bir sıra ölkələrində də sabiq nazirin ailə üzvlərinə məxsus şirkətlərin olduğu məlumdur. Buraya Baltikyanı və Şərqi Avropa ölkələrinin daxil olduğu barədə yerli KİV çoxdan yazır.

Hələ Əbülfəs müəllimin biznes imperiyasının ofşor zonalaradək uzandığı yönündə də xəbərlər yayılıb. Məsələn, bir neçə il əvvəl sabiq deputat Hüseynbala Mirələmovun Əbülfəs Qarayevlə şərikli şəkildə ofşor zonada, Panamada şirkət yaratması ortaya çıxmış və geniş əks-səda doğurmuşdu. O da aydınlaşmışdı ki, RİMBA S.A. adlı həmin şirkətin Azərbaycanda filialı da var.

Bir sözlə, görünən odur ki, vaxtilə Mədəniyyət Nazirliyində büdcə talançılığına ”yaşıl işıq” yandıran, ən yaxşı halda göz yuman sabiq nazir bütün bunların hüquqi məsuliyyətini daşımaq əvəzinə indi bir zamanlar qol qoyduğu korrupsiya hesabına yaratdığı biznesini günbəgün gücləndirməklə məşğuldur. Necə deyərlər, Allah bazar versin...

***Toğrul Əliyev***

13_27 IYUl-QARA.qxd 4/19/2024 12:03 AM Page 4



# Gəldikləri kimi gedirlər:
## "Rusiya Cənubi Qafqazla, biz də onlarla vidalaşırıq"

***Qarabağdakı Rusiya sülhməramlıları vaxtından əvvəl Azərbaycanı tərk etməyə başlayıb. Artıq rəsmi Moskva da sülhməramlı kontingentinin Qarabağdan çıxarılmasına başlandığını təsdiqləyib. Belə ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov danışıb. O, jurnalistlərə qısa açıqlamasında Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasının başlandığını təsdiqləyib. "Bəli, bu doğrudur", - Peskov qısaca olaraq deyib.***

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. O qeyd edib ki, artıq proses başlanılıb. "Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər", - açıqlamada deyilir.



Xatırladaq ki, Rusiya sülhməramlıları 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyannaməyə uyğun olaraq 5 il müddətinə Qarabağa yerləşdirilib. Sənədə əsasən, tərəflərdən biri missiyanın Qarabağdan çıxarılmasını tələb etməsə, onların mandatı daha 5 il uzadıla bilər. Rəsmi Bakı dəfələrlə bildirib ki, Qarabağ Azərbaycanın ərazisidir və Rusiya sülhməramlıları orada müvəqqəti olaraq yerləşdirilib. Hazırkı proses isə onu göstərir ki, Azərbaycan öz prinsipial mövqeyində qalır. Yəni, Azərbaycanın ərazi bütövlüyü tam təmin olunub və burada hər hansı millətlə bu və ya digər formada problem də qalmayıb. Bu səbəbdən sülhməramlı kontingentin icra etməsi üçün heç bir fəaliyyəti istiqaməti yoxdur. Təbii olaraq, rus əsgərləri ölkəmizi tərk etməyə başlayıb.

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, Rusiya sülhməramlılarının ərazilərimizdən çıxarılması nəticəsində Azərbaycanın suverenliyi daha da genişlənir: "Azərbaycan işğaldan azad etdiyi torpaqlarında öz suveren hüquqlarını artırır. Həmçinin onu da qeyd etmək lazımdır ki, əgər bu il parlament seçkiləri keçirilsə, bu, ölkəmizin tarixində ərazimizdə başqa dövlətin qoşunu olmadan keçirilən ilk seçki prosesi olacaq. Bu da suverenliyin ən yüksək göstəricisi hesab edilməlidir. Yəqin ki, ermənilər də düşünürlər ki, Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasından sonra hansısa mənfəətlər əldə edələr. Mənim fikrimcə, ermənilərin bu məsələdən öz maraqlarına uyğun müsbət nələrsə qazandıqlarını demək olmaz. Bir məsələni vurğulamaq lazımdır ki, Rusiyanın Ermənistana təzyiq edə biləcəyi şeylər azaldıqca və yox olduqca, Ermənistanın da suverenliyi bir qədər genişlənir. Bununla da Ermənistanın Qərbyönümlü siyasət həyata keçirməsinə dair imkanları daha da artır. Rusiya isə dünyanın üçdə bir hissəsini tutub. Heç öz ərazilərindəki sərvətlərdən və imkanlardan tam istifadə edə bilmir. Buna baxmayaraq, gözü yenə də digər ölkələrin torpaqlarını tutmaqdadır. Buna görə də, Rusiyanı başa düşmək çətindir. Rusiya Qarabağdan çıxardığı qoşunlarını çox güman ki, Ukraynadakı döyüşlərə göndərəcək. Onsuz da zəifləmiş ordusunu bir qədər gücləndirmək üçün bu addımı atacağı gözləniləndir".

Politoloq qeyd edib ki, Qarabağdan çox sayda texnika çıxarılır: "Bu barədə dəqiq sayı deyə bilməsək də, məlumdur ki, Rusiya sülhməramlıları ilə birlikdə kifayət qədər texnika ərazilərimizdən çıxır. "BTR"lər, piyadaların zirehli döyüş maşınları və başqa bu kimi texnikaların çıxarıldığının şahidi olmuşuq. Həmçinin, onlar arasında tanklar da var idi. Hazırda bir çoxumuz sevinirik. Özümüzü daha azad və sərbəst hiss edirik. Eyni zamanda, bir tərəfdən də səksəkə içindəyik. Düşünürük ki, birdən nəsə ola bilər. Bu millətdən o qədər çəkmişik ki, yenə də Rusiyanın nələrisə planlaya və həyata keçirə biləcəyini düşünürük. Buna baxmayaraq, mən hər hansı qorxulu və ya pis bir şeyin başa verəcəyini düşünmürəm. Bu, sadəcə insanın içərisində olan bir duyğudur. Rusiya artıq zəifdir. Bizim üçün ciddi mənada narahatlıq yaradacaq gücə malik deyil. Hər halda, onların bir əli BMT-də və digər beynəlxalq təşkilatdadır. Mənim zənnimcə, Rusiya Cənubi Qafqazla vidalaşır. Hazırda deyə bilərik ki, biz də bu imperiya dövləti ilə vidalaşırıq. Əminəm ki, dünya da Rusiya imperiyası ilə vidalaşacaq. Əlbəttə ki, bunun üçün müəyyən vaxt lazımdır".

Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, bu, böyük bir prosesin başlanğıcı kimi qiymətləndirilə bilər. Onun sözlərinə görə, "Rusiya daxil olduğu məkanı tərk etmir" tezisi Azərbaycan nümunəsində ortadan qaldırıldıqdan sonra yeni tezis gündəmə gətirilib: "Rusiya hərbçilərinin Qarabağı vaxtından əvvəl tərk etməsi Bakının Kreml qarşısında hansısa şifahi öhdəliyi sayəsində mümkün olub". E.Şahinoğlu deyib ki, şifahi öhdəlik kimi Rusiyanın istəyi ilə Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzv olacağı göstərilib: "Rəsmi Bakının bu təşkilata üzv olmasının şərti bəllidir: Ermənistan Azərbaycanla sülh sazişi imzalamalıdır. Bu saziş imzalanandan sonra Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü müzakirə oluna bilər. Ermənistan xaric, bu təşkilatdakı üzv dövlətlər Azərbaycanın tərəfdaşlarıdır və hər biri ilə sıx iqtisadi əlaqələri mövcuddur. Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyü isə mümkün deyil. Azərbaycan hərbi bloklara qoşulmur və bu səbəbdən Qoşulmayanlar Hərəkatının üzvü olub. Bu məntiqi Kreml də qəbul edib".

Politoloq onu da qeyd edib ki, Rusiya sülhməramlılarının Qarabağı tərk etməyə başlaması radikal müxalifətlə mübarizədə Ermənistanın baş naziri Nikol Paşinyanın əlini gücləndirəcək: "Radikal müxalifət Paşinyanın Rusiyanın ziddinə ABŞ və Avropa İttifaqı ilə daha çox yaxınlaşmasını tənqid edir, bunun Ermənistan üçün faydalı olmayacağını bildirirlər. Radikal müxalifət Ermənistanın İkinci Qarabağ müharibəsində məğlubiyyətinə və Qarabağda separatizmə son qoyulmasına rəğmən, İrəvanın Kremllə ittifaqdan uzaqlaşmasının əleyhinədir. Rusiya Qarabağı tərk etməyə başladıqdan sonra isə Paşinyan deyəcək ki, "Rusiya ermənilərin təhlükəsizlik təminatçısı rolundan birdəfəlik imtina edib". Bu durum Paşinyanı Azərbaycanla məsələlərin həllinə həvəsləndirməlidir. Rusiya Cənubi Qafqazdan tədricən gedir, ABŞ və Avropa İttifaqı isə Ermənistana görə Azərbaycanla və Türkiyə ilə qarşıdurmaya getməyəcək. Bunu Paşinyan da anlamamış deyil, Ermənistanın yeganə alternativ yolu Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdır".

***M.İbrahimli***



## "Xankəndinin azadlığı Yeni Kaledoniyanın qurtulmasına zəmanət verir" - Komitə sədri

***"Bu gün Qərb dövlətləri müasir müstəmləkəçilik siyasətləri ilə bir çox insanlıq əleyhinə cinayətlərin təşkilatçılarıdılar. Onların "demokratiya ixracı" imperializm siyasətinin örtüyüdür. Fransa təkcə Afrikadakı 14 keçmiş müstəmləkə ölkəsindən "müstəmləkə vergisi" olaraq illik təmxinən 400-500 milyard dollar qazanc əldə edir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən "Yeni Kaledoniya: Tarix, Müasir çağırışlar və Gözlənilən Gələcək" mövzusuna həsr edilmiş elmi konfransda parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.

O bildirib ki, bu ölkələr Benin, Burkina Faso, Kot d'İvuar, Qvineya, Mali, Niger, Seneqal, Toqo, Kamerun, Mərkəzi Afrika Respublikası, Çad, Konqo, Ekvatorial Qvineya və Qabondur: "Hazırda 13 dənizaşırı ərazini də öz müstəmləkəsi kimi idarə edən Fransa Yeni Kaledoniya adasında da bənzər müstəmləkə siyasəti yürüdür. 1853-cü ildən bəri Fransanın müstəmləkəsi olan, 270 minlik əhalisi olan Yeni Kaledoniya Sakit Okeanda yerləşən ada dövlətidir. Yerləşmə məntəqəsi onun Hind Okeanı və Sakit Okeanı arasında keçid məntəqəsi olaraq strateji əhəmiyyətini artırır. Ümumiyyətlə, böyük dövlətlərin bu cür ada dövlətlərdən istifadə edərək Hind-Sakit okeanı hövzəsində "kiçik ada strategiyaları" qurduğu bəllidir. Bu strategiya imperial maraqların təminatçısı olaraq burada hərbi bazaların yerləşdirilməsi ilə mümkün olur".

Onun sözlərinə görə, bu gün Yeni Kaledoniya Fransanın Sakit Okeanda hərbi gücünün cəmləşdiyi əsas məkanlardan biridir: "Belə ki, Yeni Kaledoniyada müstəqillik uğrunda son 2024-cü ilin mart ayında təşkil olunan etiraz mitinqində 32 min nəfər iştirak edib. Bundan öncə 2023-cü ilin noyabr ayındakı bənzər mitinqdə 10 min etirazçı vardı. Bu mitinqlərdə Azərbaycan bayrağının ucaldılması təbii və məntiqi hadisədir. Çünki ona qədər müxtəlif dairələrdə aşkar eqoizmlə qarşılanan belə əlaqələr indi səfirlərinin geri çağırılmasında səbəblərdən biri kimi vurğulanır. Yeni Kaledoniyanın müstəqillik uğrunda hərəkatının canlanmasında Azərbaycanın 44 gündə qazandığı parlaq Qələbənin təcavüzə məruz qalan bütün dünya xalqlarına təsirinin rolu danılmazdır. Qarabağın azadlığı ilə Cənubi Qafqazı koloniyasına çevirməyə çalışan bir çox dövlətlərə, o cümlədən, Fransanın maraqlarına zərbə vurulub. Xankəndinin azadlığı Yeni Kaledoniyanın müstəmləkədən qurtulmasına da zəmanət verir. Ona görə də rəsmi Paris Ermənistandan koloniya düzəldərək, onun üzərində Qafqazda istimarçı-monopoliyanı qoruyub saxlamağa çalışır. Lakin neokolonializmlə mübarizəyə Azərbaycanın töhfəsi 44 günlük Qurtuluş savaşında olduğu kimi uğurlu nəticə verəcəkdir".

***Anar Kəlbiyev***



# İlham Əliyevin məktubu İsveç Baş Nazirinin Ofisinə təqdim edildi

***2024-cü il aprelin 18-də Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri Zaur Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən İsveç Krallığının Baş naziri Ulf Kristerssona ünvanlanmış BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a dəvət məktubunu Baş Nazirin Ofisinə təqdim edib.***

"Unikal" xəbər verir ki, direktor müavini Elinor Blomberqlə keçirilmiş görüş zamanı Azərbaycanda COP29-a hazırlıqla bağlı işlər və yaşıl enerjiyə keçid sahəsində icra edilən genişmiqyaslı layihələr barədə qarşı tərəfə məlumat verilib, eləcə də İsveç-Azərbaycan əlaqələri nəzərdən keçirilib.

Həmsöhbət dəvət məktubuna görə təşəkkürünü ifadə edərək onun yüksək ünvanına çatdırılacağını bildirib.

# Goranboy rayonu üzrə istehlak bazarında qiymətlərin indeksi

***Goranboy rayonu üzrə istehlak mallarının qiymətləri və xidmət tarifləri 2024-cü ilin yanvar-mart aylarının əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz bahalaşmışdır.***

**Cədvəl 1**

**İstehlak qiymətlərinin məcmu və qruplar üzrə indekslərinin yekun göstəriciləri, faizlə**

| Göstəricinin adı | 2024-cü ilin mart ayı 2024-cü ilin fevral ayına nisbətən | 2024-cü ilin yanvar-mart ayları 2023-cü ilin yanvar-mart aylarına nisbətən |
|---|---|---|
| Cəmi məhsullar və xidmətlər | 100,5 | 101,7 |
| Qida məhsulları, içkilər və tütün məmulatları | 101,4 | 102,1 |
| Qeyri-qida məhsulları | 99,3 | 101,7 |
| Ödənişli xidmətlər | 100,4 | 101,3 |

*Qrafik 1*

**İstehlak məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri, faizlə**




İstehlak mallarının qiymətləri və xidmət tarifləri 2024-cü ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz bahalaşmışdır.

2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin yanvar-mart aylarına nisbətən "Qida məhsulları, içkilər və tütün məmulatları" qrupu məhsullarının qiymətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz bahalaşmışdır.

2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin yanvar-mart aylarına nisbətən qeyri-qida məhsulları qiymətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz bahalaşmışdır.

2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin yanvar-mart aylarına nisbətən əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərində də əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz bahalaşma müşahidə olunmuşdur.

# "Satıcılar əllərini lazımi şəkildə yuya bilmir" - AQTA sədri

***"Dünyada elə bir ölkə yoxdur ki, orada qida təhlükəsizliyi 100 faiz təmin olunsun. Dünyanın hər yerində qida təhlükəsizliyinə görə yüz faizlik cavabdeh sahibkardır".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən ictimai dinləmədə Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli deyib. Onun sözlərinə görə, Azərbaycanda təəssüf doğuran məsələ ondan ibarətdir ki, istehlakçıların bu məsələyə yanaşması bir qədər fərqlidir:

"Ölkəmizdə hazırda 50 mindən çox ticarət şəbəkəsi var. Amma ticarət şəbəkələrində satılan vaxtı keçmiş ərzaq məhsullarına görə ittihamı qida təhlükəsizliyi orqanının üzərinə düşür. Dünyada isə qida təhlükəsizliyinə nəzarət sistemi belədir ki, cavabdeh sahibkardır, ictimai nəzarət istehlakçıdadır. Qida təhlükəsizliyi orqanı isə tənzimləyicidir. Bu orqan sahibkarla istehlakçı arasında münasibətləri tənzimləyir. Hazırda qida təhlükəsizliyi sahəsində bir sıra çatışmazlıqlar var. Bunun biri ondan ibarətdir ki, hazırda Qida Təhlükəsizliyi Agentliyi qəfil yoxlamalar həyata keçirə bilmir. Qanunvericilikdə olan maneə bizə imkan vermir ki, plandan kənar yoxlama həyata keçirək. Dünyada qida təhlükəsizliyi sahəsində nəzarət sistemi öncədən xəbər vermədən aparılır. Bizdə isə hazırda qanunvericilik buna imkan vermədiyi üçün 1 il əvvəldən yoxlanılacaq müəssisələr haqqında məlumat veririk. Həmin müəssisələrə öncədən xəbərdarlıq edir ki, konkret müddətdən sonra sizi yoxlamağa gələcəyik. Sahibkar maksimum çalışır ki, həmin dövrə hazırlığını həyata keçirsin. Ondan sonra isə hansısa pozuntuları həyata keçirə bilirsə, yenidən davam etdirsin". AQTA sədri bildirib ki, bizdə istehlakçıların ictimai nəzarəti aşağı səviyyədədir: "Azərbaycanda 100 min nəfərə görə zəhərlənmə 4 hadisə, Avropa Birliyi ölkələrində isə 10 hadisədir. Azərbaycanda 2023-cü ildə baş verən 143 zəhərlənmənin 104-ü məişətdə baş verib. Bu ondan xəbər verir ki, ilkin istehsal zamanı qablaşdırmadan, saxlanmadan, satışdan daha çox biz özümüz onu istehlak edərkən, ev şəraitində həmin qidanı təhlükəli edirik. Qidanın təhlükəliliyi yalnız onun istehsalı, daşınması, qablaşdırılması prosedurunda deyil, eyni zamanda onun istehlakı prosedurasındadır. Azərbaycanda son zamanlar dönərxanalarda baş verən zəhərlənmələr əlaqədar mətbuatda da məlumat yayıldı. Qəribə də olsa, Azərbaycan satıcısı hələ də elementar gigiyenik qaydalara əməl edib əllərini lazımi şəkildə yuya bilmir. Məsələn, qəssab mətbəxdə iş görən zaman bıçaqla əlini zədələyir və orada irinli yara əmələ gəlir. Həmin irinli yaranı da asanlıqla dönərə və yaxud lüləyə keçirir. Beləliklə 30-40 adamda mədə-bağırsaq pozğunluqları ilə bağlı hal ortaya çıxır. İnsanlarda belə bir təəssürat yaranır ki, həmin qidanın özündə baş verən pozuntu ilə bağlıdır. Əslində isə qidanın özü ilə düzgün davranmaq qaydalarına riayət etməyi öyrənməliyik. Bizdə nədənsə elə təəssürat yaranıb ki, digər ölkələrdə qida həddindən artıq sağlamdır, bizdə isə ona qarşı münasibət həddindən artıq kritikdir. Bu belə deyil. Tam məsuliyyətlə bildirmək istəyirəm ki, Azərbaycan dünyada qidası təhlükəsiz olan ən öndə gedən ölkələrdən biridir".

Q.Təhməzli onu da qeyd edib ki, qanunvericiliyə görə hazırda Azərbaycanda istehsal olunan məhsulların daxilində at ətindən istifadə olunmur: "Kəsim yerlərindəki at ətləri Qazaxıstana ixrac olunur. Azərbaycanda at sahəsində xəstəliklər aradan qaldırıldığı üçün diri atın ixracına icazə verilir. Qazaxıstan, Qırğızıstan və Monqolustan kimi ölkələr Azərbaycandan ixrac həyata keçirirlər".

***Anar Kəlbiyev***

# Azərbaycanda anemiya diaqnozu qoyulmuş şəxslərin sayı artıb

***"Azərbaycanda aparılan sorğular və araşdırmalara əsasən ümumi, reproduktiv yaşlı, hamilə, laktasiya dövründə olan qadınlar və 5 yaşadək uşaqlar arasında anemiya göstəricilərinin yüksək olması dövlət səviyyəsində tədbirlər həyata keçirilməsini tələb edir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən ictimai dinləmədə Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli deyib.

Onun sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkilatının keçən ilki hesabatında dünyada təxminən 571 milyon qadın və 269 milyon azyaşlı uşağın anemiya səbəbindən ciddi sağlamlıq problemləri ilə üzləşdiyi qeyd edilib:

"Bundan əlavə ekspertlər hesab edirlər ki, anemiyanın əhali arasında 40%-dən çox yayılması artıq dövlət səviyyəsində tədbirlər həyata keçirilməsini tələb edir. Müəyyən dövrlərdə tələbatın artması və artan qan itkisinə görə mikronutriyent çatışmazlığı, eləcə də anemiyanın xüsusilə yeniyetmə qızlar, reproduktiv yaşlı, hamilə və laktasiya dövründəki qadınlar, kiçik uşaqlar və körpələr kimi əhali qruplarında görülmə ehtimalı yüksəkdir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, əhali arasında 2000-ci ildə ilk dəfə anemiya diaqnozu qoyulmuş şəxslərin sayı 22 min nəfər olsa da, 2022-ci ildə həmin göstərici 46 min nəfər olub. Eləcə də, tibb müəssisələrində anemiyaya görə qeydiyyatda olan şəxslərin sayı 2000-ci ildə 28 min nəfər olsa da, 2022-ci ildə həmin say 39 min nəfər olaraq qeydə alınıb. Dəmir çatışmazlığı anemiyanın ən çox bilinən səbəbidir və bu günə qədər anemiya ilə mübarizə üçün görülən tədbirlərin əksəriyyəti dəmir çatışmazlığının qarşısının alınması və müalicəsinə yönəlib".

***Anar Kəlbiyev***



# Ağdamda minaatan qurğular aşkar edildi

***Ağdam rayonunda minaatan qurğular aşkar edilib.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları Yeni Qaralar kəndi ərazisindən 2 minaatan qurğusu, 3 avtomat, 53 mərmi, 1 qumbara, 2 partladıcı detonator, 2 000-dən çox patron və digər sursatlar aşkar edərək aidiyyəti üzrə təhvil veriblər.

Faktla bağlı araşdırma aparılır.

13_27 IYUI-QARA.qxd 4/18/2024 11:45 PM Page 12



**5.3.14. diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Xaricdəki azərbaycanlıların "Azərbaycan evləri"

## Vəsilə Vahidqızı: "Yaxın illərdə daha 10 Azərbaycan Evinin açılması planlaşdırılıb"

***Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olub.***

Diasporumuzun təşkilatlanmasının, siyasi-ideoloji birliyinin yaranmasının isə əsas hərəkətverici qüvvəsi Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması olub. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində belə bir dövlət qurumunun yaradılması diasporun tarixində yeni mərhələnin əsasını qoyub. O vaxtdan bu günə qədər diasporumuz milli ideologiyamız olan azərbaycançılıq ideologiyası ətrafında sıx birləşib.

Son illər diasporumuzun təşkilatlanması, azərbaycanlıların xaricdə bir araya gəlməsi üçün "Azərbaycan ev"lərinin yaradılması prosesi sürətlə davam edir.

Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Vəsilə Vahidqızı "Unikal" qəzetinə son illər DİDK-nın və diaspor təşkilatlarının fəaliyyətlərində müşahidə olunan müsbətə doğru dönüşdən, "Azərbaycan ev"lərinin fəaliyyətindən söz açıb. Həmsöhbətimiz deyib ki, diasporun təşkilatlanması və güclənməsi işi bu gün də davam edir. Onun sözlərinə görə, bu gün xaricdə fəaliyyət göstərən 561 diaspor təşkilatı dünyanın 51 ölkəsini əhatə edir.

"Hazırda dünya azərbaycanlılarını birləşdirən 15 Koordinasiya Şurası fəaliyyət göstərir, müxtəlif ölkələrdə 29 Azərbaycan Evi açılıb. Yaxın illərdə daha 10 Azərbaycan Evinin açılması planlaşdırılıb. Diasporla İş üzrə Dövlət Komitəsi diaspor təşkilatları və Koordinasiya Şuralarının interaktiv xəritəsini yaradıb" deyə, Vəsilə Vahidqızı söyləyib.

O, bildirib ki, təkcə Gürcüstandakı həftəsonu məktəblər və bu tipli mərkəzlərin xidmətindən 2023-cü ildə 1724



azərbaycanlı faydalanıb. Bu xidmət onların Azərbaycan və gürcü dillərini mükəmməl öyrənmələrinə və ali məktəb imtahanlarına hazırlaşmalarına böyük töhfə verib. Ötən il ABŞ-da fəaliyyət göstərən diaspor təşkilatları komitə ilə əlaqəli şəkildə 183 layihə həyata keçirib, onların 112 - nə komitə informasiya, əyani vəsaitlər və ya maliyyə şəklində dəstək göstərib. Qalan layihələr diaspor təşkilatlarının və icma üzvlərinin öz hesabına reallaşıb.

Qurum sözçüsü onu da bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə "Qarabağ" adlı həftəsonu Azərbaycan məktəbləri açılıb. Ümumilikdə xarici ölkələrdə 100-dən çox həftəsonu Azərbaycan məktəbləri fəaliyyət göstərir. Minlərlə azərbaycanlı uşaq və gənc həmin məktəblərdə dilimizi, tariximizi, mədəniyyətimizi öyrənir. Komitə Elm və Təhsil Nazirliyi ilə birlikdə həmin məktəblər üçün müasir üslubda "Azərbaycan dili" dərsliyi hazırlayaraq soydaşlarımıza göndərib.

O, bildirib ki, Azərbaycan Diasporuna Dəstək Fondunun xətti ilə I, II və III "Qardaşlaşmış Qarabağ Məktəbləri" layihəsi həyata keçirilib. Bu günədək həyata keçirilən layihədə Azərbaycan, İsveçrə və Qazaxıstandan olan uşaqlar həm Azərbaycanda, həm də xarici ölkələrdə tarixi-mədəni biliklərə yiyələnib, qarşılıqlı məlumatlar əldə ediblər. 70-ə yaxın uşağın qatıldığı layihələrdə şəhid övladları və məcburi köçkün ailələrinin uşaqlarının iştirakına xüsusi önəm verilib. Diaspor müharibə və post-müharibə dövründə müharibə iştirakçılarına, şəhid və qazi ailələrinə maddi və mənəvi dəstəyini əsirgəməyib.

Diaspor Gənclərinin təşkilatlanmasına hesablanmış layihələrə gəlincə, V. Vahidqızı Diaspor Gənclərinin Yay Düşərgələrindən nümunələr gətirib. O, həmçinin qeyd edib ki, xaricdəki elmi potensialla əlaqənin möhkəmlənməsi istiqamətində də tədbirlər görülməkdədir. Buna misal olaraq Xaricdəki Azərbaycanlı Alimlərin Forumlarını, Xaricdəki Azərbaycanlı Həkimlərin Forumları, Beyinqazanma proqramını, Diaspor Qadınları Şəbəkəsini qeyd edib.

Həmçinin bildirib ki, Beynəlxalq tədbirlərin təşkili istiqamətində də işlər aparılır. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Türk Dövlətləri Təşkilatının tərəfdaşlığı ilə Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı-Şuşa Forumu təşkil olunub.

Xidmət rəhbəri onu da əlavə edib ki, Xocalı soyqırımının tanıdılması və "Xocalıya ədalət" kampaniyası çərçivəsində həyata keçirilən iri tədbirlər də hər il davam etdirilir.

2019-cu ildə Brüsseldə, 2020-ci ildə Berlində Ümumavropa Qarabağ mitinqi, 2022-ci ildə Vaşinqtonda Ümumamerika Xocalı mitinqi, 2023-cü ildə Vyanada minlərlə soydaşımızın və onlarla xarici jurnalist, tarixçi və alimin iştirakı ilə Ümumavropa Qarabağ mitinqi keçirilib. Vaşinqtonda Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Ümumamerika Xocalı Mitinqi keçirilib. Xüsusilə ABŞ-da şəhər merləri Xocalı bəyannaməsi imzalayıblar. Nümunə kimi Hallandeyl Biç şəhər meri Coy Kuperin imzaladığı Xocalı bəyannaməsinin, Minnesota ştatının qubernatoru Tim Volzun 26 fevralı Xocalı günü elan etməsi ilə bağlı bəyanatının, Mina probleminin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasını sadalayıb. Onu da qeyd edib ki, xaricdəki Azərbaycan icmaları xüsusilə Avropa və ABŞ-nin müxtəlif ştat və şəhərlərində Ermənistanın mina terrorunu əks etdirən məlumatlandırma aksiyaları təşkil edib.Cenevrədə Ermənistanın hərbi cinayətlərinə dair plakatların nümayiş olunduğu beynəlxalq tədbir keçirilib. Cenevrə mətbuat klubunda "Azərbaycanda minaların məhvinə aparan yol: beynəlxalq çağırış" mövzusunda panel iclası keçirilib.

Bu il isə Azərbaycanlıların İsveçrədəki Mədəniyyət Mərkəzi BMT-nin Cenevrə bölməsinin qarşısında aksiya təşkil edib. Ermənistandan Qarabağdakı mina sahələrinin xəritələrinin Azərbaycana verilməsini tələb edib, "Mina sahəsi" adlı simulyasiya təlimi təşkil edilib.

Diaspor təşkilatları son illər beynəlxalq təşkilatlara onlarla bəyanat ünvanlayıb və Qarabağ ərazilərində Ermənistanın yerləşdirdiyi minaların Azərbaycanda insan həyatı üçün davamlı təhlükə yaratdığını diqqətə çatdırıb, beynəlxalq ictimaiyyətə humanitar minatəmizləmənin BMT-nin dayanıqlı inkişafının 18-ci hədəfi kimi tanınmasını dəstəkləmək çağırışları ediblər.

Anti-Azərbaycan mövqedə olanlara qarşı etiraz da diasporumuzun gördüyü işlərdəndir. Belə ki, Fransanın Evian-le Ba şəhərindəki "Azərbaycan parkı"nda yerləşən azərbaycanlı şairə-messenat Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmə etiraz edən Azərbaycan icmasının fəalları "Azərbaycan Parkı"nda dinc aksiya keçirib. Dinc aksiyanın iştirakçıları yerli ictimaiyyəti Azərbaycan əsilli fransalıların etiraz səsini eşitməyə, qaragüruhun və cahilliyin mədəni müxtəlifliyə hücumunun qarşısını almağa, dialoq, anlaşma və sülhü təşviq etməyə dəvət ediblər. Aksiya iştirakçıları Evian-lö Bən meriyasına qətnamə təqdim ediblər.

Diasporumuzun fəaliyyəti nəticəsində Fransanın senator və deputatları Natəvanın abidəsinə qarşı vandalizmi və ümumiyyətlə, Fransadakı anti-Azərbaycan davranışlarını pisləyiblər. Fransanın fəxri senatoru Alen Vassel (Alain Vasselle) şəhər meriyasının "Azərbaycan Parkı"nın adının dəyişdirilməsi və parka ziyan vurulması təşəbbüslərini absurd və obyektivlikdən tamamilə uzaq olan ermənipərəst qüvvələrin əməlləri adlandırıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Ombudsman Başlıbel faciəsi ilə bağlı paylaşım etdi

***"Ermənistanın Azərbaycana qarşı nifrət zəminində həyata keçirdiyi soyqırımı və işğalçılıq siyasəti tarix boyu minlərlə günahsız azərbaycanlının amansızlıqla qətlə yetirilməsinə, onların soyqırımı cinayətinin qurbanına çevrilməsinə səbəb olmuşdur"***

"Unikal" xəbər verir ki, Ombudsman Aparatı Başlıbel faciəsi ilə bağlı paylaşım edib.

Paylaşımda qeyd edilib ki, bu gün Ermənistanın Kəlbəcər rayonunun Başlıbel kəndində törətmiş olduğu qətliamdan 31 il ötür.

İnsanlıq əleyhinə yönəlmiş bu qanlı qətliam nəticəsində beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsipləri kobud şəkildə pozulmuş, içərisində qadınların, uşaqların, əlilliyi olan şəxslərin, ahılların da olduğu kənd əhalisi işgəncələrə məruz qalmaqla kütləvi şəkildə qətlə yetirilmiş, hətta bəziləri diri-diri yandırılmışdır. Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biri olan Başlıbelin tarixi, dini, mədəni obyektləri işğal zamanı dağıdılaraq məhv edilib", - paylaşımda vurğulanıb.

Həmçinin bildirilib ki, Kəlbəcər rayonu işğaldan azad edildikdən sonra Ermənistan silahlı qüvvələri tərəfindən amansızcasına qətlə yetirilmiş şəxslərin dəfn olunduğu yer aşkar edilib: "Kütləvi şəkildə qətlə yetirilmiş kənd sakinlərinin qalıqları ekshumasiya edilməklə şəxsiyyətləri müəyyənləşdirilib və daha sonra ayrı-ayrı dəfn olunub".

13_27 IYUI-QARA.qxd 4/18/2024 11:45 PM Page 13



# "Azərbaycanda aptek şəbəkələri 10 dəfə çoxdur" - Eyyub Hüseynov



***"Ümum Dünya Səhiyyə təşkilatının orta insan ömrü hesabatlarına görə, 190 ölkə arasında Azərbaycan 119 ölkədən geri qalır. Azərbaycanda aptek şəbəkələri orta insan ömrü uzun olan ölkələrdən 10 dəfə çoxdur".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən ictimai dinləmədə Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

O bildirib ki, sahibkarlıqda yoxlamaların azaldılması ilə bağlı qanunvericilik aktına mütləq dəyişiklik olunmalıdır: "Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi cəld yoxlama mexanizminə malik olmalıdır. Bu vaxta qədər quru sərhəd keçidlərində AQTA-nın şöbələrinin olmaması narahatlıq yaradan məsələdir".

# Vətən sevgisinin simvolu...



***Astara Pedaqoji Kollecində Vətənin bütövlüyü, dövlətin suverenliyi uğrunda canını fəda edən şəhidlərin adlarını uca tutması və xatirəsinin daim əziz saxlaması ənənə şəklini almışdır. Bu da olduqca nəcib, müqəddəs bir əməldir. Kollecdə hər bir kəs bildirir ki, milli birlik və bərabərliyi ilə Vətən sevgisinin simvolu olan şəhidləri hər zaman canlı saxlamaq bizim vətəndaşlıq borcumuz. Bu günlər kollecin direktoru şəhid atası, professor Kamran Kazımov başda olmaqla bir qrup müəllim, işçi heyəti 44 günlük haqq savaşımızda şəhidlik zirvəsinə ucalan mayor Kamran Fərəcovun, çavuş Nurlan Rəhimovun və Arif Qeybiyevin məzarlarını ziyarət edib, önünə güllər düzüblər.***

Ziyarət zamanı professor K. Kazımov deyib ki, Kamran, Nurlan, Arif kimi qeyrətli oğulların qanı bahasına İkinci Qarabağ müharibəsi Azərbaycanın, eləcə dünyanın hərb tarixinə qızıl hərflərlə yazıldı. 30 il həsrətində olduğumuz Vətən torpaqları azad edib bizə qələbə sevincini yaşadan mərd, cəsur, qəhrəman oğullarla xalq haqlı olaraq fəxr edir, qürur duyur. Vətən sevgisinin simvoluna dönən şəhidlərin həyat yolları gələcək nəsillər üçün də örnək olacaq.

Məlumat üçün bildirək ki, 1978-ci ildə Astaranın Səncərədi kəndində anadan olan Kamran Fərəcov Bakı Ali Birləşmiş Komandanlıq məktəbinin Taktiki Tank Qoşunları komandiri fakültəsini bitirib. 1999-cu ildə leytenant rütbəsində Bakıda taqım komandiri olub. Sonra Ağdamda, Gəncədə, Goranboyda cəbhə bölgəsində Vətənin keşiyində durub. O, 20 sentyabr 2020-ci ildən könüllü təlimlərə qatılıb, şəxsi heyəti döyüşə hazırlayıb. Vətən müharibəsində Cəbrayılın, Qubadlının azadlığı uğrunda böyük şücaət göstərib. 20 oktyabrda Vətənə bağlı ürəyi düşmən gülləsinə tuş gəlib. Dövlət tərəfindən təltif olunduğu çoxlu sayda medallarla bərabər, həm də şəhidimizin Dəniz, Şəms adında qızları yadigar qalıb. 1981-ci ildə Astara şəhərində dünyaya göz açan Nurlan Rəhimov 44 günlük haqq savaşımızda Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, 30 sentyabr 2020-ci ildə Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində şəhid olub. Ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb. Nurlan evli idi. İki övladı- Ələvsət, Səidə ataları kimi Vətənə ləyaqətli böyüyürlər. Astara rayonu, Səncərədi kəndinin qəhrəman oğlu Arif Qeybiyev 2012-2016-cı illərdə Astara Pedaqoji Kollecinin idman fakültəsində orta ixtisas təhsili alıb, idmanın kross qaçışına maraq göstərib. O, kross qaçışı üzrə üçqat Azərbaycan çempionu, Atletika üzrə gənclər arasında Azərbaycan çempionu, Avropa Olimpiya təsnifat yarışlarının iştirakçısı, Yeniyetmələr arasında Respublika çempionu olub. 1 qız övladını bizlərə yadigar saxlayan Zəfər şəhidimiz Vətən müharibəsi zamanı sentyabrın 27-də Füzuli döyüşlərində şəhadətə ucalıb.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Bazar günü növbəti buraxılış imtahanı keçiriləcək



***Dövlət Imtahan Mərkəzi tərəfindən 21 aprel 2024-cü il tarixində ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək.***

DİM-dən "Unikal"a verilən xəbərə görə, aprelin 21-də Bakı şəhərinin Xəzər, (II zona), Nizami və Pirallahı rayonlarında, Naxçıvan MR, Sumqayıt (II zona), Naftalan, Abşeron (II zona), Göygöl, Goranboy, Şəmkir (II zona), Gədəbəy, Qax, Balakən, Zaqatala, Cəlilabad (II zona), Masallı (II zona), Lerik, Bərdə, Tərtər, Yevlax, Göyçay, Ağdaş, Qobustan, Saatlı, Salyan, Xaçmaz (II zona) və Quba (II zona) rayonlarında, həmçinin tədrisi ingilis, fransız və gürcü dillərində aparılan ümumtəhsil müəssisələrinin, Bakı şəhərinin xüsusi ümumtəhsil müəssisələrinin (internat məktəbləri, Çilov adasında yerləşən məktəb, cəzaçəkmə müəssisələrində yerləşən məktəblər) məzunları üçün Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçiriləcək.

Çilov adasında yerləşən məktəbə imtahan rəhbəri və materialların daşınması Azneft İstehsalat Birliyinin helikopteri vasitəsilə həyata keçiriləcək.

İmtahan saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

-İmtahana buraxılış vərəqəsi;

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

-Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

İmtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından aprelin 9-dan etibarən çap edib götürə bilirlər.

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 203 imtahan binası, 3510 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 571 imtahan rəhbəri və ümumi rəhbər, 4323 nəzarətçi, 619 buraxılış rejimi əməkdaşı (mühafizə), 203 bina nümayəndəsi ayrılıb.

İmtahanda 46169 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanda 17 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) şagirdlər də iştirak edəcək. Bu şagirdlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə onlayn şəkildə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında şagirdlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

İmtahana 1 gün qalmış təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

# Acqarına meyvə yemək təhlükəlidir?

***Sağlam insan günün istənilən vaxtı meyvə yeyə bilər.***



"Unikal" xəbər verir ki, bunu rusiyalı diyetoloq Anna Belousova deyib.

O, acqarına meyvənin təhlükələri haqqında danışıb. "Sağlam insan istənilən vaxt meyvə yeyə bilər: ac qarına, yeməkdən əvvəl, yeməkdən sonra. Sadəcə ananaslara qapılmayın: boş bir mədədə ondan sonra yemək yaxşıdır - o zaman həzm etməyə kömək edir", - o, izah edib. Ananasın tərkibində zülalları parçalayan çoxlu fermentlər var, ona görə də onu əsas yemək zamanı və ya ondan sonra yemək yaxşıdır - o zaman həzm etməyə kömək edir", - o, izah edib.

Dietoloq mədə-bağırsaq traktının, onikibarmaq bağırsaq və ya nazik bağırsaq xəstəliklərinin kəskinləşməsi olan insanların pəhrizindən meyvələri çıxarmağa çağırıb. Bu vəziyyətdə ən yumşaq pəhriz tələb olunur və təzə meyvələr müvəqqəti olaraq istisna edilməlidir.

O xatırladıb ki, yüksək turşuluq halında bananı acqarına yemək tövsiyə olunandır. Çünki bu, tampon kimi işləyən və artıq turşuluğu söndürən nişastalı bir məhsuldur.

***Gülayə Mecid***



# Şəhid Əhməd Məmmədovun anım tədbiri keçirilib

## Qəhrəmanımızın həyatı və döyüş yolundan bəxs edən "Şəhid Əhməd - Oğluma məktub" filmi təqdim olunub



***Qarabağ müharibəsində qəhrəmancasına şəhid olan Əhməd Məmmədovun şəhadətə ucalmasının 30-cu ildönümüdür.***

"Unikal" xəbər verir ki, bununla əlaqədar Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzində "Bir ovuc torpağa sevgi" adlı anım tədbiri keçirilib. Eyni zamanda, şəhidimizin həyatı və döyüş yolundan bəs edən filmin təqdimatı baş tutub.

Tədbirdə şəhid ailələrinin üzvləri, qazilər, dövlət və ictimaiyyət nümayəndələri, fəlsəfə doktoru Mail Yaqub, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər şöbəsinin sədri Hacızadə Tərlan, millət vəkilləri Ceyhun Məmmədov və Müşfiq Məmmədli iştirak ediblər.

Tədbirdə öncə şəhid Əhməd Məmmədov barəsində məlumat verilib. Daha sonra şəhidimizin oğlu, tanınmış jurnalist Zaur Əhməd çıxış edərək Azərbaycan xalqının yaddaşında hər bir şəhidin qəhrəmanlıq dastanı əbədi qalacağını bildirib. Sonra o, hazırlanan "Şəhid Əhməd - Oğluma məktub" filminin necə ərsəyə gəlməsindən danışıb.

Daha sonra filmin ssenari müəllifi, ehtiyatda olan zabit Seymur Şahbazzadə çıxış edib. O da film barədə ətraflı məlumat verib. Filmdə müharibənin ilk illərindən son qələbəyə kimi baş verən proseslərin əks olunduğunu, ağır müharibə dövründən mütləq qələbəyə qədərki hadisələrin yer aldığını bildirib. Sonra film təqdim olunub.

Təqdimatdan sonra şəhər icra hakimiyyətinin nümayəndələri, millət vəkilləri, ictimaiyyət adamları çıxış edərək fikirlərini bölüşüblər.

Daha sonra tədbir bədii hissə ilə davam edib. Tədbirin aparıcısı Əməkdar artist Cəlal Məmmədov idi. Əməkdar artist Rauf Ağakişiyevin ifasında R.Qusarçaylının "Azərbaycan Bayrağı" şeiri səsləndi. Xanəndələrdən: Tural Salmanov, Məlahət Hacıyeva, gənc müğənni Aydan Salahova vətənpərvər mahnılarla çıxış etdilər. Foyedə akustik gitarada İsazadə Telman



vətənpər mahnıları tədbir iştirakçılarına təqdim edib.

Şəhidimiz 1959-cu il aprelin 1-də Cəbrayıl rayonunun Hacılı kəndində doğulub. 1965-ci ildə orta məktəbə gedib, 1975-ci ildə məktəbi bitirib. 10 illik orta təhsili bitirəndən sonra oxuyub və işləmək üçün Sumqayıta gəlir. Gənc şəhəri sevən Əhməd Məmmədov digər yerdə yox məhz Sumqayıtdakı Kimya Texnologiya texnikumunda oxumaq istəyir. Həmin il sənədlərini həmin texnikoma verir, lakin sonra təhsilini davam etdirmir, sovet təhsil sistemində qohumluq və rüşvəti görüb daimi etiraz edir, ədaləti tələb edir, lakin o zamankı sistem onun haqsızlığa qarşı etirazını bildirdiyi üçün cəzalandırır, o isə cəzanı qəbul etməyib texnikumu yarımçıq qoyur. Sonra hərbi xidmətə yollanır. Macarıstanda xidmət edir. Hərbiyə marağı olduğuna görə müxtəlif təyinatlı bölüklərdə olur. Həm rabitə, həm artileriya üzrə hərbi bacarıqlarına görə seçilir. Orduda qalıb xidmətini davam etməsini komadrıləri neçə dəfə təklif etsə də "Azərbaycansız yaşaya bilmərəm" deyib. 1979-cu ildə hərbi xidmətini başa vurub geri qayıdır.

Əmək fəaliyyətinə Sumqayıtda Sintez kauçuk zavodunda başlayır. Qısa müddətdə baş usta olur, daha sonra briqadir olur. İş yoldaşları ona "qızıl əl" də deyirdilər. Mahir dəmir ustası idi. Onun iş yoldaşları deyirlər ki, "dəmir onun əlində muma dönürdü".

1993-cü ildə Cəbrayılın işğalından sonra könüllü olaraq, Milli Ordu sıralarına qoşulur. Elə yaşadığı Sumqayıt batalyonuna yazılır. Ailəli, üç övladı olmasını ona deyib arxa cəhbədə qalmasını təklif edirlər. Lakin o heç kimi eşitmir "Qarabağ kişilər yurdudur və qarabağı da oranın kişiləri qorumalıdır" deyib inad edir.

İlk olaraq Ağdam rayonu ərazisinə gəlir. Burda keçmiş hərbi təcrübə ona çox kömək edir. Onu döyüşlərdə tanıyanlar deyirlər ki, Əhməd Məmmədov bütün döyüşçülər çörək yeyib bitirməyənə qədər əlini suya belə aparmazdı. Bütün gənc əsgərlərin döyüş hazırlığı ilə yanaşı niyə Vətən uğrunda döyüşdüklərinin mahiyyətini onlara təbliğ edirdi. Ağdamın Papravənd, Çəmənli, Güllücə kəndləri ərazisində gedən döyüşlərdə iştirak edir. Döyüş yoldaşlarının söhbətlərinə görə, onun xüsusi hərbi bacarığı nəticəsində onlarla düşmən əsgəri məhv edilib. 11 aprel 1994-cü ildə Ağdam rayonunun Çəmənli, Güllücə, Gültəpə yüksəkləri və kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlər o qədər ağır keçir ki, Bakıdan belə xəbər verirlər ki, geri çəkilin, özünüzü ölümə verməyin. Amma heç bir kəs geri çəkilmək istəmir. Əhməd Məmmədov döyüş zamanı üç güllə yarası alır, lakin döyüş yerini tərk etmir və qəhrəmancasına həlak olur.



***Murad İbrahimli***



## Azərbaycanın hərbi pilotları təlim-məşq uçuşları icra ediblər

***Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra ediblər.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, əvvəlcə şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb. Hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra praktiki uçuşlar yerinə yetirilib.

Ssenariyə uyğun olaraq Su-25ML və Su-25 tipli təyyarələrdən müəyyən edilmiş marşrutlar üzrə gündüz vaxtı havaya qalxma, yerə enmə, həmçinin müxtəlif hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra edilib.

"Hərbi pilotların döyüş hazırlığının təkmilləşdirilməsi məqsədilə keçirilən təlim-məşq uçuşları zamanı qarşıya qoyulan tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib", - məlumatda vurğulanıb.

## Samuxda avtomobillərin sayı nə qədərdir?

***Samux Rayon Statistika İdarəsindən verilən məlumata görə rayonda 2023-cü ilin sonuna avtomobillərin sayı 8327 ədəd təşkil etmişdir. 2022-ci illə müqayisədə avtomobillərin sayı 559 ədəd və ya 6,7 faiz artmışdır.***

2023-cü ilin sonuna yük avtomobillərinin sayı 823 ədəd, minik avtomobillərinin sayı 7245 ədəd, avtobusların sayı 189 ədəd, yəhərli dartqıların sayı isə 70 ədəd olmuşdur. Onlardan 8193 ədədi şəxsi, 79 ədəddi xüsusi mülkiyyətdə, 55 ədəddi isə dövlət mülkiyyətidə olan avtomobillərdir.

Yük avtomobillərinin içərisində QAZ-33, QAZ-53 və kamaz markalı avtomobillər, minik avtomobillərində isə VAZ-21, mersedesbenz, hundai, opel və şevralit markalı avtomobillər çoxluq təşkil edir.

Samux Rayon Statistika İdarəsi

## Bu motosikllər üçün idxal gömrük rüsumu müəyyənləşdi

***Nazirlər Kabineti "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edib.***

"Unikal"ın xəbərinə görə, mühərrikinin silindrlərinin işçi həcmi 50 sm3-dən çox olmayan porşenli daxiliyanma mühərrikli motosikllər (konstruksiyası ilə (və ya texniki göstəriciləri ilə) müəyyən olunan maksimal sürəti saatda 50 km-dən çox olan və digərləri) üçün idxal gömrük rüsumu 15 faiz olacaq. Maksimal sürəti saatda 50 km-dən çox olan elektrik mühərrikli velosipedlər üçün də 15 faiz idxal gömrük rüsumu müəyyənləşib.

Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

13_27 IYUI-QARA.qxd 4/18/2024 11:46 PM Page 15



# "Sülhməramlıların Qarabağı tərk etməsi tarixin sonu deyil" - Sergey Markedonov



***"Rusiya sülhməramlı qoşunlarının Qarabağı tərk etməsi tarixin sonu deyil".***

"Unikal" xəbər verir ki, bunu MDBMİ-nin aparıcı tədqiqatçısı, politoloq Sergey Markedonov deyib.

O, qeyd edib ki, sülhməramlı qoşunların çıxarılması sensasiyaya çevrilməyib: "Rusiya qoşunlarının çıxarılması Qafqazda baş verən mühüm dəyişikliklərin nəticəsidir. Onun yerləşdirilməsi qərarı konkret tarixi şəraitdə verilib. Onlar yeni status-kvoya uyğun gəlməyi dayandırdıqda, baş verənlər oldu. Rusiya sülhməramlı qoşunlarının Dağlıq Qarabağı tərk etməsi, əgər bunu sakit və rasional dəyərləndirsək, tarixin sonu deyil".

***Ağarza Elçinoğlu***

# Ukraynada 10 min məhkumun səfərbər olunması gözlənilir

***"Ukraynada 10 minə qədər məhkum səfərbər oluna bilər".***

"Unikal" xəbər verir ki, bunu Ukraynanın "New Time" radiosuna Ali Radanın deputatı Roman Kostenko deyib. Onun fikrincə, ordunun səfərbərliyə hazırkı ehtiyaclarını nəzərə alsaq, "bu, heç nə deyil".

Deputat məhkumların orduya qəbulu prosesinin dəqiq necə baş verəcəyini açıqlamayıb. Eyni zamanda o qeyd edib ki, Ukraynanın belə təcrübəsi var - münaqişənin əvvəlində döyüşlərdə iştirak etmiş məhkumlar artıq azad edilib. Yanvarda Ukrayna ədliyyə nazirinin müavini Yelena Vısotskaya bildirib ki, Ədliyyə Nazirliyi həbsdə olanların orduya çağırılmasına rəsmən icazə verilməsini təklif edən səfərbərlik haqqında qanunvericiliyə dəyişikliklərlə bağlı parlamentə təkliflər göndərib. Onun sözlərinə görə, hazırda Ukrayna qanunvericiliyi məhkumların və artıq cəzasını çəkmiş şəxslərin Ukrayna Silahlı Qüvvələri sıralarına cəlb edilməsini qadağan edir.

***Gülayə Mecid***

# "İran bu barədə Amerika tərəfinə mesajlar göndərib" - Abdullahiyan

***İran İsrailə qarşı "Əsl vəd" əməliyyatından əvvəl və sonra Amerika tərəfinə mesajlar göndərib.***

"Unikal" xəbər verir ki, bu barədə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan bildirib.

"Biz amerikalılara açıq şəkildə bildirdik ki, İran İslam Respublikasının Ali Milli Təhlükəsizlik Şurasının İsrailə cavab qərarı qətidir. Həm hücumdan əvvəl, həm də sonra mesajlar mübadiləsi aparılıb. Bu bazar ertəsi təxminən saat 2:30-da biz diplomatik kanallarla ABŞ-yə növbəti mesaj göndərdik və bu mesajlarda Amerikaya açıq şəkildə bildirməyə çalışdıq ki, biz regionda gərginliyi artırmağa çalışmırıq. Bölgədə gərginliyi artıran İsrail rejiminin hərəkətləridir", - deyə nazir İRNA agentliyinə müsahibəsində qeyd edib.

***Ağarza Elçinoğlu***

# ABŞ-dən sülhməramlıların Qarabağdan çıxarılması ilə bağlı açıqlama

***ABŞ Dövlət Departamenti Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması ilə bağlı fikir bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Departamentinin mətbuat katibinin birinci müavini Vedant Patel brifinq zamanı açıqlayıb.

"Biz Rusiya ordusunun Cənubi Qafqaz regionunda daha dinc və sabit vəziyyətə sərmayə qoyduğunu göstərən heç nə görmədik və bu payızda Qarabağda baş verən hadisələr buna sübutdur. Bu, Rusiyanın etibarlı müttəfiq və ya tərəfdaş olmadığına daha bir nümunədir.

Biz Ermənistan və Azərbaycanın davamlı və ləyaqətli sülhə nail olmaq üçün səylərini qətiyyətlə dəstəkləyirik və bu prosesə töhfə verməyə davam etməyə hazırıq", - Patel bildirib.

# "30 ildir regionda "bespredel" şəraitində yaşayırıq" - Paşinyan

***"Biz son 30 ildir regionda "bespredel" şəraitində yaşayırıq".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan dünən Tavuş vilayətində kənd sakinləri ilə görüşündə deyib. Paşinyanın sözlərinə görə, bu vəziyyətə son qoymağın, təkcə ölkədə deyil, həm də regionda qanunun aliliyini bərqərar etməyin vaxtı çatıb: "Bizim fikrimiz odur ki, insanlar deməsin Azərbaycan niyə sərhəddə yaxındır, desin ki, nə yaxşı Azərbaycan 50 metr aralıdadır, biz orada ticarət edəcəyik, orada iqtisadiyyat quracağıq və s.

Bunun baş verəcəyinə 100 faiz təminat vermirəm, amma bilirəm ki, addımlar atmaqla biz irəli gedəcəyik, 90 faiz və daha çoxuna nail olacağıq".

Baş nazir həmçinin qeyd edib ki, bu addımlar atılmasa, bölgədə yeni qarşıdurma olacaq: "Haqq var, qanun var, xətt var. Biz də gedib o xəttdə dayanırıq. Bu xətt üzərində dayanmaqla bugünkündən 100 dəfə güclü olacağıq. Söhbət vermək və almaqdan getmir, söhbət Ermənistan Respublikasını bir dövlət kimi 100 dəfə gücləndirməkdən gedir".

Paşinyan onu da qeyd edib ki, hərbi xidmətə çağırış sistemi və səhiyyə sistemində dövlətə qarşı geniş əməkdaşlıq var. Baş nazir hərbi xidmətdən azad edilmə hallarına toxunaraq qeyd edib ki, sistemdə boşluqlar çoxdur: "Milli Təhlükəsizlik Agentliyinin nəzarəti nəticəsində təəccüblü bir fakt aşkar ediblər. Qeyd olunur ki, çağırışçının beynində kista var, lakin sonra onu müəyyən etmək mümkün olmur. İstinad edilən araşdırmanın məlumatları həmin şəxslə bağlıdır. Kimin ağlına gələrdi ki, ölkənin iki elit peşəsi arasında dövlətə qarşı belə geniş əməkdaşlıq var?".

O, səhiyyə və müdafiə nazirliklərinin niyə hökumətə hesabat vermədiyini də soruşub: "Bəlkə bu sualın cavabını almaq üçün qrup yaradaq?".

***Ağarza Elçinoğlu***

# "Qərb nüvə şantajı ilə məşğuldur" - Zaxarova

***"Ukrayna və Qərb nüvə şantajı ilə məşğuldur, BMT Təhlükəsizlik Şurasında Rusiyadan Zaporojye atom elektrik stansiyasına nəzarətin onlara verilməsi tələbini irəli sürür".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı bildirib.

O qeyd edib ki, aprelin 15-də BMT Təhlükəsizlik Şurasının brifinqində Qərb ölkələrinin nümayəndələrinin Rusiyaya qarşı irəli sürdüyü tələb məhz budur.

Zaxarovanın sözlərinə görə, Qərb dövlətləri sözün əsl mənasında özlərinə və Ukrayna prezidenti Volodimir Zelenskiyə xəyanət ediblər. Əslində, Qərb Rusiyaya ultimatum verib ki, Zaporojye AES-ə nəzarəti Kiyevə versinlər.



"Bu, Qərbin və Kiyevin şantajla məşğul olması faktının təsdiqidir. Onlar nəinki açıq şəkildə Ukraynanın stansiyanın təhlükəsizliyinə təhdid mənbəyi olduğunu etiraf etdilər, həm də faktiki olaraq bu obyektə təhlükəli hücumlarda iştirak etdiklərini təsdiq etdilər", - Zaxarova bildirib.

***Gülayə Mecid***

# "Azərbaycan xüsusi reinteqrasiya proqramı qəbul edib" - Rusiya XİN

***Qarabağ ermənilərinin qayıtmaq imkanı olmalıdır.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

"Gördüyünüz kimi, Azərbaycan hakimiyyəti xüsusi reinteqrasiya proqramı qəbul edib. Rusiyanın bu addımları alqışladığı və dəstəklədiyi dəfələrlə vurğulanıb. Qarabağ ermənilərinin hüquqları və təbii ki, təhlükəsizliyi lazımi qaydada təmin olunarsa, geri qayıtmaq imkanı olmalıdır", - XİN sözçüsü deyib.

Onun sözlərinə görə, Rusiya o prosesə hər cür dəstək verməyə hazırdır: "Belə olan halda vətəndaşların mümkün qayıdışına şərait yaratmaq üçün böyük həcmdə iş görmək lazımdır. Ermənistan-Azərbaycan münasibətlərinin hərtərəfli tənzimlənməsi, o cümlədən sülh müqaviləsinin imzalanması, kommunikasiyaların açılması və ərazilərin demarkasiyası lazımdır".

***Ağarza Elçinoğlu***

# Rusiya səfiri Almaniya XİN-ə çağırıldı

***Almaniya Xarici Işlər Nazirliyi Rusiya səfirini casus qalmaqalına görə çağırıb.***



"Unikal" xəbər verir ki, bu barədə Almaniyanın "Bild" qəzeti məlumat yayıb.

Xatırladaq ki, bu gün Almaniya Baş Prokurorluğu Rusiyaya casusluqda şübhəli bilinən iki nəfəri saxlayıb. Məlumata görə, onlar Rusiya xüsusi xidmət orqanlarının tapşırığı ilə ölkədə təxribat əməliyyatları keçirməyi planlaşdırıblar.

***Gülayə Mecid***

13_27 IYUl-QARA.qxd 4/18/2024 11:46 PM Page 16



# AFFA bu klubları cərimələdi

***AFFA İntizam Komitəsi "Sumqayıt"ı 2300, "Sabah"ı 1500 manat cərimələyib.***

"Unikal" xəbər verir ki, buna səbəb adıçəkilən komandaların Premyer Liqanın XXX turunda keçirdikləri görüşdə qeydə alınan neqativ hallar olub.

"Gənclik şəhəri" təmsilçisini "Zirə" ilə ev matçının 52-ci dəqiqəsində azarkeşlər tərəfindən pirotexniki vasitədən istifadə edilməsi 1500, qarşılaşmanın ardından meydana kənar şəxsin daxil olması isə 800 manat ziyana salıb.



"Qarabağ"la oyunda 5 futbolçusu sarı vərəqə alan "Sabah" buna görə 700 manat cərimələnib. Görüş bitdikdən sonra meydana kənar şəxslərin daxil olması isə bakılıları daha 800 manat xərcə salıb.

# Çempionlar Liqası: "Bavariya" və "Real" yarımfinalda




***UEFA Çempionlar Liqasında yarımfinala yüksələn son iki komandanın adına aydınlıq gəlib.***

"Unikal" xəbər verir ki, "Bavariya" doğma meydanda İngiltərə "Arsenal"ı ilə qarşılaşıb. Matç almanların 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Komandalar arasında keçirilən ilk görüş 2:2 hesablı bərabərliklə yekunlaşdığı üçün münxenlilər mərhələni adlayan tərəf olublar. Günün digər oyununda "Mançester Siti" və "Real Madrid" üz-üzə gəlib. İlk matçda (3:3) olduğu kimi, bu görüş də (1:1) heç-heçə ilə yekunlaşıb. Əlavə vaxtda da qapılara qol vurulmadığı üçün penaltilər seriyası baş tutub. Burada daha dəqiq olan "Real Madrid" (4:3) yarımfinala vəsiqə qazanıb və "Bavariya"nın rəqibi olub.

Qeyd edək ki, yarımfinalın digər görüşü "Borussiya Dortmund" (Almaniya) və PSJ (Fransa) arasında baş tutacaq.

# Şəhidlərin xatirəsinə futbol yarışları keçirilib

***Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olan şəhidlərin əziz xatirəsinə həsr olunmuş gənclər arasında futbol üzrə rayon turnirinə yekun vurulub.***

Turnirin təltif etmə mərasimində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Masallı rayon üzrə gənclər və idman sektorunun, Masallı rayon İcra Hakimiyyəti Başçısının Xırmandalı kənd İƏD üzrə nümayəndəliyinin əməkdaşları və şəhid valideynləri iştirak edib.

Rayonun Ərəb kənd stadionunda 5 gün davam edən turnirdə 2 qrup üzrə 12 komanda olmaqla, ümumilikdə 300 nəfərə yaxın idmançı qələbə uğrunda mübarizə aparıb . Gərgin mübarizə şəraitində keçən, azarkeşlərin marağına səbəb olan turnirdə bütün rəqiblərini geridə qoyan Həsənli kəndinin komandası birinci yerə çıxıb. İkinci yeri Xırmandalı kəndinin komandası tutub. Turnirin üçüncüsü meydança sahibləri olub.

Qalib gələn idmançılar Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin kubok, medal, eləcə də diplomlara layiq görülüb.

Astara rayonunda isə Aprel döyüşlərinin əfsanəvi döyüşçüsü, "Qoca Qurd" ləqəbli şəhid Pəncəli Teymurovun adına futbol klubu yaradılıb. Pəncəli futbol komandası Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının rəsmi qeydiyyatından keçib. Komandanın tərkibi 45 yeniyetmədən ibarətdir. Klubun direktoru İlqar Dadaşov, təsisçisi Famil Teymurov, baş məsləhətçisi və məşqçisi Tural Əmirovdur.



Hazırda region liqasında 2 komanda ilə (U-11 və U-13) mübarizə aparır. Astara şəhərində keçirilən "Qış Kuboku " futbol turnirində U-11 yaşla mübarizə aparan klub ikinci yeri qazanıb.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Azərbaycanı Avropa çempionatında təmsil edəcək şahmatçılar

***Sabah Yunanıstanın Rodos adasında qadın şahmatçılar arasında şəxsi Avropa çempionatına start veriləcək.***

"Unikal" Azərbaycan Şahmat Federasiyasının mətbuat xidmətinə istinadən xəbər verir ki, 35 ölkənin təmsil olunacağı yarışda Azərbaycan şahmatçıları da mübarizə aparacaqlar. Qitə çempionatında Azərbaycanı Günay Məmmədzadə, Gövhər Beydullayeva, Ülviyyə Fətəliyeva, Xanım Balacayeva, Gülnar Məmmədova, Səbinə İbrahimova, Ayan Allahverdiyeva, Ləman Hacıyeva, Nərmin Abdinova və Səbinə Rzalı təmsil edəcək.

10 turdan ibarət Avropa çempionatına aprelin 29-da yekun vurulacaq.

Xatırladaq ki, 2022-ci ildə Günay Məmmədzadə Avropa çempionatında gümüş, Ülviyyə Fətəliyeva isə bürünc medala layiq görülüb.

# Noyerdən yeni rekord



***"Bavariya"nın qapıçısı Manuel Noyer yeni rekorda imza atıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, almaniyalı qolkiper Çempionlar Liqasında qol buraxmadığı matçlar sayını 58-ə yüksəldib və bu göstəricidə rekorda imza aatıb. 38 yaşlı qapıçı son olaraq dünən ÇL-in 1/4 finalında "Arsenal"la cavab oyununda (1:0) qapısını toxunulmaz saxlayıb.

Beləliklə, Manuel Noyer "Real"ın əfsanəvi qapıçısı İker Kasilyasın (57 oyun) geridə qoyub.

# Azərbaycanlı hakim beynəlxalq cüdo yarışlarına dəvət aldı




***Azərbaycan Cüdo Federasiyasının (ACF) hakimlər heyətinin üzvü Nazim Umbayev Paralimpiya Oyunlarının cüdo yarışlarında hakimlik edəcək.***

"Unikal" ACF-nın mətbuat xidmətinə istinadən xəbər verir ki, A kateqoriyalı beynəlxalq dərəcəli referi sentyabrın 5-7-si aralığında Fransanın paytaxtı Parisdə keçiriləcək Yay Paralimpiya Oyunlarında ədalət təmsilçiləri sırasında yer alacaq.

Qeyd edək ki, Nazim Umbayev 2017-ci ildə B, 2022-ci ildə A kateqoriyalı beynəlxalq dərəcəli hakim adını alıb. O, 2022-ci ilin sonundan etibarən Beynəlxalq Cüdo Federasiyasının təşkilatçılığı ilə Dünya Cüdo Turu çərçivəsində keçirilən nüfuzlu yarışlarda hakim kimi iştirak edir. Umbayev hazırda cüdo hakimlərinin dünya reytinqində 19-cu pillədə qərarlaşıb.

# Gimnastlarımız Dünya Kubokunun finalında

***İdman gimnastikası üzrə Azərbaycan milli komandasının üzvləri Qətərin paytaxtı Dohada keçirilən Dünya Kubokunda final mərhələsinə vəsiqə qazanıblar.***




"Unikal" federasiyanın mətbuat xidmətinə istinadən xəbər verir ki, kişilərin yarışında Nikita Simonov halqalar üzrə proqramı uğurla yerinə yetirərək həlledici mərhələyə yüksəlib. Qadınlarda isə dayaqlı tullanma proqramında Nazənin Teymurova finala vəsiqə qazanıb.

Qeyd edək ki, yarışa aprelin 20-də yekun vurulacaq.

# Arteta: "Çempionlar Liqasında oynamağı öyrənməliyik"

***"Arsenal"ın baş məşqçisi Mikel Arteta komandasının Çempionlar Liqasında mübarizəni dayandırmasından danışıb.***

QOL.az xəbər verir ki, London təmsilçisi turnirin 1/4 finalında "Bavariya" ilə ilk görüşdə heç-heçə (2:2) etsə də, cavab oyununda uduzub - 0:1. Bununla da İngiltərə klubu ÇL ilə vidalaşıb.

Arteta görüşdən sonra açıqlamasında "Arsenal"ın ÇL-də təcrübəsiz olduğu üçün mərhələ adlamadığını deyib: "7 ildir ki, bu turnirdə oynamırıq. 14 ildir ki, Çempionlar Liqasının 1/4 finalına çıxmırdıq. Bunun bir səbəbi var. Biz nəticələrimizi yaxşılaşdırmaq üçün əlimizdən gələn hər şeyi etmək istəyirik. Çempionlar Liqasında oynamağı öyrənməliyik. Ancaq bu, illər çəkəcək".

13_27 IYUl-QARA.qxd 4/18/2024 11:57 PM Page 2



# "Qarabağı cənnətə çevirəcəyik" - Xalq artisti Aygün Bayramova



***”Bir qarabağlı olaraq çox sevinirəm ki, insanlarımız artıq Böyük Qayıdışa hazırlaşırlar. Laçına və kəndlərinə, Füzuli şəhərinə, Zəngilana köç edirlər və çox xoşbəxtdirlər. Mən də istərdim ki, doğulduğum Ağdamda fəaliyyətimi davam etdirim”.***

”Unikal” xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Xalq artisti Aygün Bayramova deyib. O öz sahəsində uğur qazanmış insanları birliyə çağıraraq, hamının əl-ələ verib Qarabağı cənnətə çevirəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, ilk növbədə, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır. Dövlət Komitəsi tərəfindən məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri həyata keçirilir. Bu çərçivədə, işğaldan azad edilmiş ərazilərdən olan ziyalıların, gənclərin və müxtəlif peşə sahiblərinin iştirakı ilə videoçarxlar hazırlanır.

Xalq artisti Aygün Bayramovanın iştirakı ilə hazırlanmış videoçarxı təqdim edirik.

# "Aparıcılar bununla özünü alçaldırlar" - Könül Kərimova



***”İki-üç gün əvvəl efirdə təsadüfi müğənniliyə başlayan qızlardan birini gördüm. Aparıcı sənətdən, sənətkarlıqdan elə suallar verir ki, məəttəl qaldım. Sənətkar isə həmin verilişdə oturanda başqa suallar verirsiniz”.***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Könül Kərimova ”Tarixin bir günü” verilişində deyib. O, aparıcıların bununla özlərini alçaltdıqlarını qeyd edib: ”Müğənni başqadır, sənətkar başqa. Sənətkara veriləcək sualları müğənniyə vermək olmaz. Onlar da həvəslə, düşünə-düşünə elə cavab verirlər ki... Buna görə də çaşırlar! Reytinq xatirinə çox aparıcılarımız təsadüfi müğənniliyə başlayanlarla sənətkar kimi davranırlar, zorla insanlara sırıyırlar. Gələn də çaşır, düzgün təbliğat getmir. İnsanlar da fikirləşir ki, yəqin aparıcı bunu dağın başına qoyursa, biz tanımırıq, qoy, yaxşı-yaxşı qulaq asım. Həmin o aparıpcılara deyirəm, inanın ki, bununla özünüzü alçaldırsınız! Müğənni də özünü o qədər yüksəkdə görür ki... Niyə özünüzü elə göstərirsiniz ki? Qoy, o da öz yerini bilsin, sən də öz yerində qal. Belə şeylər adama qəribə gəlir, insan sınır. Gündəmdə olmaq başqa, sənətkar olmaq ayrı şeydir. Məndən qat-qat aşağıda olan müğənnilərə haqqımda sual verirlər. Efirdə belə şeylərə riayət etmək lazımdır”.



# Rəqsanənin əmlaklarına həbs qoyulub?

***Müğənni Rəqsanə İsmayılovanınAzərbaycandakı mülklərinə həbs qoyulub.***

”Unikal” Qaynarinfo.az-a istinadən xəbər verir ki, müğənninin külli miqdarda borcu var. Həmin borcla bağlı qərar qəbul olunsa da, Rəqsanə İsmayılova qərarı icra etməyib.Bu səbəbdən icra məmuru tərifindən Nəsimi rayon Məhkəməsinə müraciət edilib. Məhkəmənin qərarı ilə Rəqsanə İsmayılovanın Goranboy rayonunda və digər yerlərdə yerləşən 100 sotdan artıq torpağına və onun üzərindəki əmlaka həbs qoyulub.

Rəqsanə İsmayılova qərardan Bakı Apellyasiya Məhkəməsinə şikayət verib. İşə hakim Elşən Kazımovun sədrliyi ilə baxılacaq. Məsələ ilə bağlı Rəqsanə İsmayılova açıqlamasında xəbəri əvvəlcə təkzib etsə də, sonradan təsdiqləyib.

Müğənni bu barədə geniş danışmaq istəmədiyini bildirib: ”Köhnə söhbətdir və məsələ ilə bağlı Bakı Apellyasiya Məhkəməsinə müraciət etmişik”.

# "Üzümdə əməliyyat etdirməmişəm" - Rəqqasə Fatimə



***”Telefondakı filtrlər hamını bir-birinə oxşadır. Amma hər kəsin öz gözəlliyi var. Çirkin yox, baxımsız qadınlar var. Özünə baxmaq lazımdır, amma sərhəddi keçməmək şərtiylə”.***

Bu sözləri rəqqasə Fatimə Fətəliyeva ”Qonaqcanlı” proqramında deyib. Plastik əməliyyatlardan danışan sənətçi bununla bağlı suallara belə reaksiya verib: ”Buxaq əməliyyatı istəyirdim, həkim etmədi. Üzümdə əməliyyat etdirməmişəm. Bir burnumu, bir gözümün üstündəki əti əməliyyat etdirmişəm. Üzdartdırma, başqa prosedurlar olmayıb. Heç botoksa belə getmirəm, ehtiyacım yoxdur. Etməyəndə, üzüm özünə qayıdır. Edəndə cizgilərim itir. İnsanın ruhu nə qədər gözəldirsə, kindən, paxıllıqdan uzaqsansa gözəl qalacaqsan. Amma yaş öz sözünü deyir. O qədər poztiv insanam ki... Allah mənə enerji verib, onu xərcləməsəm, depressiyaya düşərəm. Mən səhnə, alqışla yaşayıram. Rəqqasələr arasında bir-iki nəfər milli rəqsi qoruyub saxlayırlar. Mahnı oxumağıma gələndə isə... Səsim yoxdur, onu xınalar üçün edirəm.

# "Belə ərim olduğuna görə çox xoşbəxt və şanslıyam" - Vəfa Şərifova



***Müğənni Vəfa Şərifova ”Evdəkilərə salam” verilişində şəxsi həyatından danışıb.***

”Unikal” xəbər verir ki, xoşbəxt olduğunu deyən sənətçi həyatında olan insana təşəkkürünü bildirib. 10 ildir birgə olduğunu qeyd edən Vəfa övladlarının atasını hər bir işdə ona dəstək göstərdiyini deyib. Bildirib ki, evə və ailəsinə pul xəclәmir: “Bütün xərcləri övladlarımın atası, həyat yoldaşım qarşılayır. Mənim həyatımı çox yüngülləşdirir. Belə hayat yoldaşım olduğuna görə çox xoşbəxt və şanslıyam”.